TAHİR TALIBLI

# QURDU QƏMGİN, QUŞU QƏRİB

Redaktor: Əfqan Məmmədov
Rəssamlar: Fərman Hüseynov
Məmməd Dəmirçioğlu
Korrektor:

*Annotasiya. Tahir Talıblı sözün qüdrətinə inanan, onun tənsibini çəkən şairdir. Bu gücə söykənərək o özünün söz dünyasını qurub.*

*Kitabda müəllifin müxtəlif illərdə yazdığı şeirlər toplanıb. Bu şeirlərdə Vətən, torpaq həsrəti, yurd nisgili, yuvasından perik düşmüş insanların çəkdiyi ağrılar, acılar bəxt sözün vasitəsi ilə aydın verilir.*

*Bununla yanaşı kitabda toplanmış şeirlərdə tələbəlik illəri, bu illərə xas yaşantılar, duyğular, həyəcanlı anlar canlandırılır, oyadılan nostalji hisslər insanı bir də ömrün gənclik çağlarına qaytarır.*

*Poetik nümunələrdə həm də bu günümüzün ən aktual problemlərinə işıq salınır, bunların bədii həlli axtarılır.*

**ISBH 978-9952-8028-8-9**
**© Tahir Talıblı, 2013**

**“Yeni Poliqrafist” MMC**

# ƏVVƏLİN VƏ SONUN ŞEİRLƏRİ

Görəsən, bu kitabı üzə çıxarmaqla “möhtəşəm” maklatura siyahısına bir əlavə də mən eləmirəmmi?

Sonuncu əl boyda kitabçam 2003-cü ildə rəhmətlik Akif Səmədin təkidiylə işıq üzü gördü. Çapına qədər çox işi özü elədi, torpağı yüngül, ruhu şad olsun.

İçimin, çölümün ağrıları çoxdu. Bu kitabın məni sevindirəcəyi heç ağlıma da gəlməz. Ona görə ki, ömrüm boyu özümlə daşıdığım ağrıları yaza bilmədim, çəkəcəklər daha da artdı, çoxaldı. Bu ağrıları, çəkəcəkləri canımdan yazı şəklində çıxara, soyuna bilmədim. Bu heç mümkün də deyil.

Rəhmətlik anamın həmişə qorxacaq, ehtiyatla dilinə gətirdiyi bir söz vardı: “Allah adamı sonku ayıbınnan saxlasın”. Ömrün sonku ayıbı, nədisə, çox ağır ittihamdı. Adamı bir kabus kimi qarabaqara izləyər.

Bu “sonku ayıb” yurd itkisi oldu. Qibləsini, yönünü bildiyin, ağrını, acını çəkən yurd. O yurd ki, nisgili azalan, göynəyi soyuyan deyil.

Bu kitabda yurda dediklərim də var, yuxuda gördüklərim də. Adı da belə gəldi: “Qurdu qəmgin, quşu qərib”. O qurdun, quşun qəribliyi, qəmginliyi məni daha çox umaxşıdır.

Bu yazıları bir yerə topladım ki, itib-batmasın. Hər halda yaşadığım ömürdən

qopuntulardı. Köhnələri dönə-dönə oxudum, düzəlişlər elədim, təkrar-təkrar oxuduqca elə çoxunda əzəlki varianta qayıtdım. Bu yazılar istəklərimi ifadə eləyə bilməsə də, hər halda hər birində yaşantılarım qalır.

Özüm-özümü indiyə qədər necə tanımışamsa, necə öyrənmişəmsə, açığını deyim ki, bu yazılarda eləcə də yenidən gördüm. Bir az köyrək, bir az çılğın, elə o qədər də ötkəm, bir az da özü-özünnən çəkinən.

Ama, nə yazıqlar ki, bu kitabda özümü qane eləyən bir şeirin üstünə əlimi qoya bilmərəm. Bunu tam səmimiyyətimnən deyirəm. Bu da Tanrı qədəridi.

Düzü o Gözəgörünməzin izni nə qədərdisə, sözə o qədər yaxın olursan. Yəni ürfana, haqqa yaxın olduğun qədər.

Söz haqda çox deyilib, çox yazılıb... Söznən bağlı təzə nəsə demək də mümkün deyil. Tanrıya söz qədər yaxın heç nə yoxdu, odu ki, insan əlinin sözə çatmağı Tanrı ətəyinə çatmağa bərabərdi. Hər halda təəssüf elədiyim bir acı həqiqət budu: «Çox demirəm, ildə, könül dəftərlərinə düşəsi bircə şeir yaza bilsəydin, indi qırx, əlli şeirin yiyəsiydin. Bu isə şair xoşbəxtliyin olardı. Bu xoşbəxtliyə sahib olanlara şükür. Qismətə şükür».

Bir də o var ki, söz yalana bükülləndə adamın içinnən, çölünnən ruh kimi çəkilib gedir. Başın üstən göyün, ayağın altdan yerin çəkilir. Sözün yalana bükülməyinnən haşa...

İyirmi yaşımnan bu yana adda-budda yazdıqlarımı adda-budda bu kitabda topladım. Bayaq dediyim kimi, bir az özümə oxşuyannarı, bir az səmimi bildiklərimi. Yeridi deyim, özümə oxşuyannarnan da yola getməyim bir az çətin olur.

Bu yaşıma qədər özümə cavabı olan və cavabı olmayan suallarım çox olub. Belə suallardan bəlkə də məni çox incidəni «niyə şeir yazdım»dı.

Doğrudan da, nə üçün? Ona görəmi ki, ömrün boyu özün də, yazdıqların da xəcalətli qalsın?

**“Zəif şeirlərim xəcalətlənər.**
**O qızın könlünü fəth edəmmədi”.**

İkinci sinifdə oxuyurdum. Bir dəfə tənəffüs vaxtı yeddinci sinif şagirdlərinin (o vaxt məktəbimiz yeddiillik idi) şeir haqqında mübahisələrini gördüm. Kiminsə yazdığı şeiri təhlil eləyirdilər. Anladım ki, yazılan bu şeirdə misralardakı hecaların sayı bir-birini tutmur. Yeddincilərdən Süleyman, Şərif, daha kimlərsə israrla şeirin müəllifini başa salmaq istəyirdilər ki, bütün misralardakı hecaların sayı eyni olmalıdı. Səndə isə hecaların sayı düz gəlmir.

İlk baxışda mübahisədən anladıqlarım bu oldu, sözün düzü eşitdiklərimin heç fərqində olmadım da, keçib getdim. Axşam şər qarışan vaxtı səhər-səhər rastlaşdığım söhbətin

təzədən fərqinə vardığımı hiss elədim. Həmin andaca “Kənd axşamı” adlı bir şeir qaraladım. Şeirdən yadımda qalanlar təxmini belədi: “Kənd axşamıdı, mal-naxır, qoyun-quzu örüşdən qayıdan vaxtdı. Uşaqlar mal-heyvanın, qoyun-quzunun naxırdan, sürüdən ayrılıb həyətlərə sürülməsinə kömək eləyir. Bir sözlə, romantik bir mənzərə”... Kəndin o gözəl mənzərəsi, o romantik axşam yadıma düşdükcə indi də içim silkələnir. Şeirin misralarındakı hecaları saydım, gözlərimə inanmırdım. Bütün misralarda hecaların sayı on biriydi. Dönə-dönə hesablamalı oldum. “Qələbəm” özümü də heyrətləndirmişdi, necə olub ki, yeddinci sinfin şagirdinin şeirində hecalar düz gəlmirdi? Heyrət və təəccüb qarışıq bir hiss keçirdim. Bir anlığa özümü söz sahibi bildim, şair kimi hiss elədim. Açığını deyim ki, bu hiss ilk andaca içimnən, həm də bir qorxu kimi keçdi. Mənə elə gəldi ki, bütöv bir şair ömrü yaşamışam, indi ölüm ayağındayam. Məni ölüm ayağında yazacağım son şerin qorxusu, xofu basdı. Onu da deyim ki, ömrüm boyu o xof mənimlə qaldı. Ama o şeir yazılmadı, başa düşdüm ki, heç yazılası da deyil.

Əslində hər doğulan şeir ölüm ayağının şeiri kimi yazılmalıdı.

Bəlkə buna görə də az yazdım. Çox az yazdım. Şairliyimi yazanda yox, yazmayanda daha çox hiss eləmişəm. Yazmayanda daha çox şair oluram.

Hər halda şeirə gəlişim aldanış idi.

Şeirin tamını, sözün duzunu N.Hikmətin, S.Yeseninin şeirlərinnən daddım.

Daha sonralar anladım ki, xalq şerimizin hikməti dəryalar dərinliyi, göylər sonsuzluğu qədərmiş.

Bu yazdıqlarımın ən cavanının iyirmi, ən ahılı isə cavanınnan qırx dörd, qırx beş yaş böyükdü. İyirmi yaşlılar tələbə yaşının şeirləridi. Bilmirəm, bunlar indi bir tələbə könlünü qanadlandıra biləcək, ya yox? Bunları sevən bir tələbə oxuyacaq, ya yox? Məlum olan budu ki, bu şeirlər kitaba yığılannan sonra da dəfələrlə özüm oxuyacağam, sonra bir ömür səhifələri kimi örtüləcək.

Yəqin ki, tələbə sevgisinin ünvanı kimi o qız da bu şeirləri heç vaxt oxumayacaq.

Bu ön söz də, demək istədiklərim, ama deyə bilmədiklərimin hamısı da, bu təkəmseyrək yazılan şeirlər də özümün özümə hesabatım, özümün özümə demək istədiklərim, verəcək suallarımdı. Suallarsa cavabı yox tənliklər kimidi.

Hər halda əvvəlin şeirləri ömrümün əvvəli kimidi.

Daha yaşlılar isə ölüm ayağının şeirləri olmasa da, sonun şeirləri kimi qalsın.

**Tahir Talıblı**
yanvar, 2013

Gözlərimə dolubsan,
Gözümün nuru kimi,
Gözlərimə dolubsan
Sevgim-qürurum kimi.

Hərdən insafsız olub
Ürəyimi çağlatdın.
Yerin gen olsun,-deyə
Gözlərimi ağlatdın.

1968

***

Ya dərsə gecikib, ya da nə isə...
Gözlərim axtarır, bu adət deyil.
Həsrəti qəlbini ağlatmayırsa
Hələ o məhəbbət, məhəbbət deyil.

Sevgi yollarına çıxar intizar,
Sevgi yollarında hicran sədd olar.
Küləklər də vüsal həsrətlisidi,
Çaylar da hicrandan nəğmə oxuyar.

Hicran ki, vüsalın keşiyindədi
Axı, giley nədir, bir duyaq onu.
Məhəbbət bir titrək alov kimidi
Sönər, yad nəfəsdən qoruyaq onu.

1968

## TƏBİƏT ŞEİRİ

Dərə elə dərin, elə uyğulu,
Üstünnən quş səkməz, pələng addamaz.
Dağlar elə təmiz, elə duyğulu,
Dağlara bir çimdik kələk addamaz.

Təbiət dünyanın fövqünə qalxan
Bir rəssam əlindən yaranıb burda.
Buluddan süzülüb, axan damcıdan
Qayalar yuyulub, daranıb burda.

Sıldırım üstündən ha bağır, çığır,
Səsin bir ənliyə, canlıya çatmaz.
Sıldırım üstünə dikələn cığır,
Sıldırım üstündən geri qayıtmaz.

Qarışan axşamı, açan səhəri,
Zirvələr qarşılar dumanda, çəndə.
Qaya qartalları, qaya kəlləri
Göylərə boylanar güzgüləndə.

Dərə elə dərin, elə uyğulu,
Üstünnən quş səkməz, pələng addamaz.
Dağlar elə təmiz, elə duyğulu,
Dağlara bir çimdik kələk addamaz.

1968

## PALID

Palıd daş kimidi, - deməsin heç kim,
Bir çubuq kəsilsə ağlayar palıd.
Təmənna istəməz, öz yarasını
Öz qabığıyla bağlayar palıd.

Gözdən yaş çıxarar, bəlkə qəzəb, kin,
Bəlkə də sevincdi yaş adamlara.
Bəs niyə bir öyüc ola bilməsin
Palıd kövrəkliyi daş adamlara?!

1968

## ATLANT ÇİNARLAR

Qalxıbdı əlçatmaz ucalıqlara,
(Hər vaxt ucaların kökü dərində)
Elə bil Atlantdı, bizim çinarlar,
Göyləri saxlayır çiyinlərində.

1968

***

Gözlərimin qarşısınnan
Çiçəklərə şehdi düşən.
Səhər mehi nəfəsindi -
Xumarlandım öpüşünnən.

1968

## TƏK DURNA

Bürünüb göylərin qəribliyinə
Harasa bir durna təklənib gedir.
Bir qatar durnanın intizarı da
Onun qanadına yüklənib gedir.

Düşündüm, düşündüm...
Sanki fikrimdən
Duman aralandı, bulud ötüşdü,
Baxdım tək durnanın arxasınca mən
Babamın bir sözü yadıma düşdü:

Harda bir qəhrəman var döyüşlərdə
Bir nəslin adını daşıyıb demək.
Bir maral buynuzu tapılan yerdə
Bir maral sürüsü yaşayıb demək.

1968

***

İldırım zərbəsindən
qorxmuram!
Çiy gülüş səsindən
qorxuram.
Qanun məhkəməsindən
qorxmuram
Əlində qanun tutan
qanunsuzlar əlindən
qorxuram!

1969

## PAYIZ

Yaydan miras qalan yamyaşıl otlar
Qızarıb mis rəngi alar payızda.
Durna qatarının vida nəğməsi
Səmadan asılıb qalar payızda.

Əsəbi insana dönər küləklər,
Ağacdan yarpaqlar tökülüb gedər.
Dəyişər təbiət, sanki torpağın
Gəlinlik bəzəyi sökülüb gedər.

Dağların başına enər buludlar-
Torpağın qəmini eşidər, duyar.
Kövrək bir sim kimi dinər buludlar,
Çaylar da yaralı segah oxuyar.

1969

## GÜNAHIM - GÜNAHIN

Özüm də bilmirəm nəyim itibdi
Bir itiyi itmiş adam kimiyəm.
Ürkək baxışların küsüb gedibdi,
Dünyanın sonuncu müttəhimiyəm.

Ayrılıq keçilməz bir sərhəd olub,
Qovuşa bilmirik sabahımızla
Hardasa, haçansa gözümüz dolub,
Qalmışıq hərə öz günahımızla.

Söhbətə yığışan, qeybətə gələn,
Məni də nişan ver tanış qızlara.
Bir az "dərdimi çək", bir az qüssələn,
Bir az gileyimi danış qızlara.

De,-həsrət gözümdən indi qan sızır,
Demə, eşqimizin cəfasızıyam.
Sən bütün qızların etibarlısı,
Mənsə oğlanların vəfasızıyam.

Mənim günahlarım bir yükdü, gülüm!
Neyləyim, özümü öyə bilmərəm.
Sənin də günahın böyükdü, gülüm!
Sənin günahını deyə bilmərəm...

1969

## ƏLİ KƏRİMƏ

Göyçada bir şair qəbri var-
Göyçay çinarları bayatı deyər.
Adam: - "qəbirləri buz yuxusundan
Yarpaq pıçıltıyla oyadır" - deyər.

Göyçayda bir şair qəbri var-
Təlatümü yatar, səbri dincələr.
Ata həsrətlisi üç igid nərin-
Paşanın, Orxanın, bir də Azərin
Ürəyi kövrələr, qəlbi incələr.

Göyçayda bir şair qəbri var-
Dərdi, ağırlığı yeri əyibdi.
Zərbi Ələsgərin, Sarı Aşığın
Daş qəbirlərini silkələyibdi.

1969

## MƏCNUN MƏHƏBBƏT

Batar uzaqlarda Məcnun “yelkəni”,
Ömrümə bir Leyli “tufanı” axar.
Ağrısı, acısı qəlbimə hakim,
Əzab da bir cürə sevgidi, axı!

Dünyama bir ömür qayğı dağıdar
Uzaqdan boylanan baxışların da.
Bizim aramızda İbn-Səlam var,
“Bitərəm” ayrılıq “yağışlarında”.

Bir şirin arzuya dönər yolunda-
Duyğudu çəkilən yenə tarıma.
Sənin görkəmində, sənin donunda
Mələklər doluşar yuxularıma.

Yanıb kül olsa da sönməsi çətin -
Məcnun sevgilərə “boy verər” hamı.
Leylisi vəfalı olan sevginin
Vərəmləməlidi İbn-Səlamı.

1970

***

Bilir ki, gizli-gizli
Alışıram, yanıram.
Hərdən də söz soruşur,
Dilim də topuq çalır
Özüm də utanıram.
Dindirməsə dinmirəm
Dilim sanki lal olur.
Ürəyimdən keçənlər
Gözümdə sual olur.
O hərdən dəftərimi,
Qələmimi, istəyir
Mənə elə gəlir ki,
Lap qəmimi istəyir.
Bəzən gülməyin gəlir
Məndə bu lal duruşa
Dönüb ehtiyac olur
Elə nəsə istəyə,
Elə nəsə soruşa.
Nə zamandır qəlbimin
İstəyini, sözünü
Dilimdə kiridirəm.

Növbəti seminarçün
Məndən kitab istəyir

Heç özüm oxumamış
Tapıb ona verirəm.

Nə istəyir istəsin,
İstər kitab istəsin
İstər qələm istəsin
Deyirəm ki, baş üstə
Ancaq deyə bilmirəm
Ay zalımın qızı, sən
Məndən Günəşi istə
Məndən qəlbimi istə.

1970

## ƏDİB BABALAR

*“Molla Nəsrəddin”in müəlliflərinə*

Kim deyər: alışıb sönmüsünüz, yox,
Odunuz uzağa gedib, babalar.
Millətin dərdiylə ürəkləriniz
Həmişə alışıb, ədib babalar.

Kiminsə car olub müdrikliyi də
Bəzən səhvləri də elə yayılıb.
Ancaq böyük var ki, böyüklüyü də
Millətin adına nöqsan sayılıb.

Yatıb, ayılmayıb, min illər bəşər
Yaşayıb cəhalət mağarasında.
Siz xalqın, millətin əzabı qədər
Qalmısız od ilə su arasında.

Mürgülü müsəlman üfüqlərinə
“Molla Nəsrəddin”nən top atmısınız.
Siz ey “lağlağılar”, “cüvəllağılar”
Xalqın tarixini yaşatmısınız.

Topdan, tüfəngdən də uzağa gedən,
Hər an əlinizdə qələm dinibdir

Bir də "laübəli" qəhqəhənizdən
Dumanlı beyinlər silkələnibdir

Yaxşıdır hər şeydən qəlb ucalığı,
Hər şanı, şöhrəti ucuz tutdunuz.
Milləti o qədər düşündünüz ki,
Öz eşqinizi də siz unutdunuz.

Görüb qeyriləri tərəqqi tapıb
Bizim "maralları" hayladınız siz.
Millətin dərdinə zarafat qatıb,
Millətin özünə payladınız siz.

Gələr od yurduna nə qədər nəsil
Deyər adınıza nə qədər alqış!
Zamanın aynası - "iyirminci əsr",
Sizin çiyninizdən qalxıb ucalmış.

1970

## "YANIQ KƏRƏM"İ DİNLƏRKƏN

Bu necə əfsundu ki,
Min illərdi əsirəm.
Xan Kərəmin səsiyəm,
Xan Əslimi gəzirəm.

Həsrət köhnə həsrətdi,
Hicran qəmdi, boyatdı.
Bu necə hava idi,
Bu necə yanğı idi

Ruhumu silkələdi,
Ürəyimi oynatdı.

1970

## BİÇİN NƏĞMƏSİ

Biçinçi oyanar səhər o başdan
Yenə oxuyacaq biçənəkləri.
Dəryaz nəğmələri dinər o başdan
Oyadar yuxudan boz kəklikləri.

Otlar can dərmanı, güllər təzə-tər
Hər açılan güldən şirin bal damır.
Günəşin sarımtıl telləri səhər-
Sanki qarğıdalı saçaqlarıdı.

Geniş zəmilərtək böyüyər ürək
Polada döndərər zəhmət qolları.
(ilk dəfə biçinə gedirdik o gün)
Kotandan açılan yorğun öküz tək
Büdrəyə-büdrəyə gəldik yolları.

Biçinçi arzusu - istəyi kimi
Qızılgül günəşə boylanar yerdən.
İldə bircə ayı kurortlara yox,
Kərənti çəkməyə gəlin, şəhərdən.

1970

***

Yadımda kül olan bir Əsli qalıb,
Sehirli nağıllar mənə tanışdı.
Mən ki, allahların əlindən alıb
Səni məbədlərdən oğurlamışdım.

1970

**NƏNƏM**

Ömrünün sevdalı günləri uçub,
Ömrünə nəvəli günləri yağır.
Nənəmin "Nikolay hesabı" ilə
Fırlanır cəhrəsi hey ağır-ağır.

Dilində təvəkkül, qəlbində dərd, qəm,
Gözündə işığı azalıb indi.
Bir vaxt gəlin nənəm, bir vaxt qız nənəm
Bir görün necə də qocalıb indi.

Dəcəl nəvələrin tutar əlinnən -
Onnardan uzağı görəmməz nənəm.
Geyinər “on iki taxta” donunu,
İndiki qızları bəyənməz nənəm...

Düşünər, düşünər, gözü qıyılar,
Ömründən dumanlı günlər ötüşüb.
Deyirlər saçına yağan dümağ qar
Oğlu cəbhələrə gedəndən düşüb.

Bayatı söhbətə, sözə əsirəm,
Nağıllar nənəmin ömrüdü, gedir.
Mən söz axtarıram, mən söz gəzirəm,
O isə həmişə söz üstündədi.

1970

## HƏSRƏT NƏĞMƏSİ

Qəlbimdə ola-ola
Mən səni harda gəzim?
Ay itkin göyərçinim,
Hansı yollarda gəzim?

Dağ başı dumanlıdı,
Dərələrdə çən olmaz.
Bir dünya gözəl olsa,
Mənə heç kim sən olmaz.

Yatmaram gecələri-
Səbrim, qərarım, hanı?
Məni kim ovundurar
Gəzsəm bütün dünyanı?

Bircə əlçim buludam
Gah boşalan, gah dolan.
Mənəm səni itirib
Sonra peşiman olan...

1970

## AZƏRBAYCAN

Azərbaycan-Kür-Arazın qovşağıdı
Azərbaycan - şer, sənət ocağıdı.
Tarixidi daş vərəqli
Yazım-yazım kitabələr.
Soraqlaşsan qulağına
Milyon illik səda gələr.
Torpağında babaların hərarəti.
Şırıl-şırıl bulaqları diş göynədir.
Bağlarında can dərmanı,
Dağlarında var qarı da.
Daşqın axır bu torpağın
Ən balaca çayları da.
Şümşad boylu oğlanları
Yer üzündə birincidi.

Qocaları Qorqud kimi bilicidi.
Od baxışlı
Gözəlləri ağıllıdı.
Məhəbbətlər "Leyli Məcnun",
"Əsli Kərəm" nağıllıdı.
Bir planet sevinci var.

Araz boyda dərdi-səri
Azərbaycan torpağıdı
Füzulinin, Ələsgərin
Ağrı çəkən qəbirləri.

1970

## BALIQÇI VƏ SU PƏRİSİ

Bir oğlan var idi... Balıqçı oğlan
Hərdən peşəsini qınayırdı o.
Həmişə sulara tor atan zaman
Durub öz baxtını sınayırdı o.

Sular qalxa-qalxa, gah enə-enə,
Sular ləpə-ləpə axdı baxtına.
Bir gün tor atmışdı sulara yenə
Bir gün su pərisi çıxdı baxtına.

Bəlkə axtardığı, gəzdiyi həmdəm,
Dəryalarda imiş... yoxsa bu nəydi?
Oğlan gözəlliyə, pərisə bu dəm
Odlu baxışlara əyilməliydi.

Bu gündən görüşdü hər gün ikisi
Sular bu həsrəti hey yuya-yuya.
İnsan məhəbbəti, pəri sevgisi
Beləcə yarandı, gəldi dünyaya.

Atdı qırmaqları, tilovu, toru
Gitara götürdü balıqçı oğlan.
O köhnə sahilə sulardan duru
Bir nəğmə gətirdi balıqçı oğlan:

“Sular axdı baxtıma,
Sular çıxdı baxtıma”.
Elə bilirdilər tək ikisiydi
Dünyada yaşayan, dünyada qalan.

Bunun gözlərində su pərisiydi,
Onun gözlərində balıqçı oğlan
Bu ona deyərdi: “ay su pərisi”
O da pıçıldardı: “balıqçı oğlan”.

Bu həsrətin ömrü bircə andımı
Qəlbindən keçərdi yolları qızın.
Gitara sahildə dınqıldadımı -
Suları yarardı qolları qızın!

Görüşə-görüşə həsrət çəkərdi.
Həsrətli-həsrətli görüşərdilər.
Elə unudardı əzabı, dərdi
Suların dilində gülüşərdilər.

Elə həzinləşdi, danışdı, dindi,
Sözlər inciləşdi söz arasından.
Əvvəl tor atdığı sulara indi
Nəğmələr yağırdı gitarasından.

Bu eşq dünyasında yaşamaq üçün
Beləcə səadət bəsiydi, bəlkə.
Bu iki ömrü uzatmaq üçün,

deyirəm tale -
Bütün ömürlərdən kəsəydi, bəlkə.

Noyabr 1971

## NAĞIL

Gələ çoxlarına sevgimiz acıq -
Bizə göz olalar,
Olsunlar nə qəm.
Yenə söhbətimiz qala yarımçıq
Yenə addım-addım fürsət gözləyəm.

Fateh olmalısan, sözün açığı -
Axı qız ürəyi örtülü qala.
Qorxuram sədd ola utancaqlığım
Sevgim ürəyimdə örtülü qala.

Oxuyam qəlbini o bir cüt gözdə
Artıq söz-söhbətə ehtiyacmı var?
Hər şeyi danışa əvəzimizdə
Bizə ram olmayan odlu baxışlar.

Qəsdən uzadasan cavablarını
Vüsal mənim üçün gəlməyə asan.
Xoşbəxtlik boynuna çələng taxıla
Şöhrət zirvəsində xumarlanasan.

Həsrətim adını hər yana yaya,
Bu həsrət qəlbimdə dəryadan dərin.
Məni yamanlaya, səni danlaya
Forsunnan partdayan rəfiqələrin.

Düşə lap yerinə bu söz, bu söhbət.
Ama ürəyində bic-bic güləsən.
Çoxala qəlbində insaf, məhəbbət.
Məni də bir böyük şair biləsən.

1971

## TƏLƏBƏLİK

Aman, doğma tələbəlik,
Ömrümüzün dörd ilini,
dəftərlərin, kitabların

arasına səpələdik.
Ünvanımız yataqxana,
Maaşımız təqaüddü.
Əzabımız, sevincimiz
Nağıl kimi keçdi, getdi.
Ümman kimi siniflərdə
Nələrimiz qaldı bizim,
Donub qalan, qəribsəyən,
izlərimiz qaldı bizim.
Adımıza tələbələr deyiləndən
Ömrümüzdə
Uşaqlığa sərhəd çəkdik.
Burda bəzi arzulara,
İstəklərə bir hədd çəkdik.
İqlimləri, uzaqlığı
Eraları heç elədik
Homerlərin əfsanəvi,
Dünyasına köç elədik.
Daha niyə gizləyim ki,
Çoxumuzun macərası oldu burda.
Çoxumuzun ürəyinə alov saldı,
Məhəbbətin odu burda.
Çoxumuzun ilk eşqini
Məhv elədik!
Çoxumuzun ilk eşqini
biz həyata çıxarmamış
Siniflərdə - partaların arasında dəfn elədik
Sevincimiz oldu deyim
dalğa-dalğa
Qəlbimizə qəm də doldu
qalaq-qalaq.

O, qəm üçün
sevinc üçün
qəribsərik.
Aman, aman tələbəlik...
Məndən sonra oturduğum partalarda
oturanlar,
Bilin, burda partaların üzərində
əllərimin izi qalıb,
Bir tələbə ömrünü mən
uyutmuşam.
Sən tutduğun qapıların
dəstəyindən,
Vaxt olub ki, mən tutmuşam.
Burda əli çənəsində
bir fikirli,
bir tələbə şair qalıb,
axı, burda Tahir qalıb.

1971

## YOLLAR, ÜMİDLƏR

Quruyub dəryanda qırçın sularım
Üzməyə tamarzı gəmim ağlayır.
Mənim görüşümə kim həsrət qalıb,
Mənim bu şəhərdə kimim ağlayır?

Köksümə sığınmış bir simdi ürək,
Üstünü kül basmış odam, ocağam.
Gözlərin sevdiyim bir cüt misra tək

Yollar uzandıqca oxuyacağam.

Gözlərin hər şeyi deyirdi onda
Bizim söhbətimiz tutmurdu, ancaq.
Sel gəlib, su daşıb tufan qopanda
Sevgimiz bir körpə tumurdu, ancaq.

Bircə baxışındı yadımda qalan
Yağış gətirəsi buludlarım var.
Bircə baxışımdı yadımda qalan
Yollara çıxmağa ümidlərim var.

Yollara çıxmağa artar ümidlər
Əlində yesirəm bir dəli hissin.
Hər gecə yuxumdan qatarlar keçər
Bir qatar da keçər: "Bakı-Tbilisi",
Bakı – İrəvan.

Könlümə sığınmış tək simdi ürək
Üstünü kül basmış odam, ocağam.
Gözlərin sevdiyim bir cüt misra tək
Yollar uzandıqca oxuyacağam.

1971

## GECƏLƏR ƏRİYƏR YANAN ŞAM KİMİ

Gecələr...
alışıb, yanar pəncərələr.
Gecəyə baxar adamlar,
küçəyə baxar adamlar,
Ulduzlara baxar adamlar.
Kiminsə xəyalı,
işıqların
yolayrıcından boylanar içəri.
Gecənin sükutunda
yol çəkər
Kiminsə gözləri.
Kimsə bu dəm
əllərinin arxası ilə,
Ovuşdurub gözlərini
Qurcalanar yerində.
Hardasa...
bu titrək gecənin
sükutunu pozar

iki cüt yanaşı yeriyən
ayaq,
küçələrin birində.
Kimisə... Yerində dondurar intizar.
Hardasa...
Gecəli bir giley var.
Əriyər gecə,
əriyər,

əriyər.
Bayaqdan şıltaqlıq
eləyən
körpə də kiriyər.
Uyuyar dünyada
Hər nə var.
Tək külək,
Bir də ki, ləpələr
Gümüşü nəğmələr oxuyar
Beləcə əriyər gecə,
diksinər gecə,
oyanar quşlar,
çıxarlar yuvadan,
quş qəmli,
quş səksəkəli,
quş sevincli
yuvadan.
Qaranlığı dənlər sərçələr,
dünyaya açılar səhər.

1971

## SINAQ DƏRSİ

*Pedaqoji institutun son kurslarında
məktəblərdə sınaq dərsləri keçirdik.
Dərslərdə kurs rəhbərimiz, sinfin
fənn müəllimi, bir də tələbə
yoldaşlarımız.... dərsin gedişi izlənir,
təhlillər aparılırdı.*

Nə tez ötüşmüşdü illər, təəssüf
İçim ağrılıydı əzablar ayıq.

Dalana dirəndi yollar, təəssüf
Bir də ayıldım ki, son kursdayıq.

Sandım ki, yenə də sınaq dərsidi
O qız da arxada nəsə deyir hey/.
Əli çənəsində, baxışı iti
Məni çaşdırmaqçün gülümsəyir hey.

Təəssüf, gör necə günümüz itdi,
Dondu əbədilik qəm aramızda.
Sandım ki, yenə də sınaq dərsidi,
Mənim nöqsanımı yazır o qız da.

Qarışdı gözümdə mübtəda, xəbər
Nidalar ah çəkib nidamı dedi.
Adı şah misra tək dilimdə əzbər
Gözləri əyani vasitəm idi.

Bəs hanı o məktəb, o sınaq dərsi
Ömrümün bir anlıq qonağı imiş.
Adi dərs deyilmiş o sınaq dərsi
Bəlkə sevgimizin sınağı imiş.

Sandım ki, yenə də sınaq dərsidi
O qız da arxada nəsə deyir hey,
Əli çənəsində, baxışı iti
Məni çaşdırmaqçün gülümsəyir hey!

1972

***

Baxışla qarşılardıq,
Baxışla ötürərdik
Biz o gözəl qızları.
“Sevirəm” deyəmmirdik
Qorxurduq ki, itirək
Biz o gözəl qızları.
Sevərdik gizli-gizli
Sevgimiz oddu, güclü.
Yad gözdən qorumaqçün
Onlara çəpər idik.
Hərəmiz bir gözəlin
Dərdini çəkər idik.
O gözəllər od imiş
Bizi oda saldılar.
Eşqə, sevgiyə dönüb
Qəlbimizdə qaldılar.
Necə xoşbəxt imişik
Biz tələbə oğlanlar
İtirməyin o anı

Ay tələbə olanlar!
İtirməyin o gözəl
Göyçək-göyçək qızları
İtirməyin ətirli,

Çiçək-çiçək qızları.
Məhəbbət qığılcımı
Ürəyə gizli düşər
Güclü sevin sevəndə
Daha gizli sevməyin
Araya üzlü düşər.

1972

## YAXŞILAR

*Quba rayon, milis idarəsinin rəisi,*
*polkovnik Məmməd Rzayevə.*

Onların yoludu hər cığır, hər iz,
Hər yaxşı - gözümdə bir zirvəli dağ.
Deyirəm, dünyanın özünə də biz
Gəlin, yaxşıların gözüylə baxaq.

Şərin qəlbi qırıq, yolları yarı,
Hər kəlmə başında sözünü udur.
Pisliklər dünyanın azar-bezarı,
Yaxşılıq dünyanın göz muncuğudu.

Pislik ayaq tutmaz, elə sürünər,
Elə hey qovrular o öz yağında.
Pislərin gözündə pislik görünər,
Bəzən yaxşıların yaxşılığı da.

Yaxşılıq çiçəkdi saçlarına səp
Demə əlçatmazdı, uzaqdı onlar.
Əyil suyundan iç, gözlərindən öp -
Təmənnasız axan bulaqdı onlar.

1972

## BABAMIN KƏHƏRİ

Ötən ömür üçün qəribsəyirmi-
Səksəni, doxsanı haqlayır babam.
Keçmiş bir ilxıdan yadigar kimi
Bir yorğa kəhər də saxlayır babam.

Dəli cavanlığı, əyləncələri
Ağardıb saçında, saqqalında o.
Yığıb bir ömürlük xatirələri
Bir kitab söz kimi öz alnında o.

Qardaşınnan artıq sevdiyi atın
Elə uşaq kimi qulluğundadı.
Atınnan uzağa atmaz bir addım,
Arpası, samanı qoltuğundadı.

Verər inəklərdən, camışdan qabaq
Atın alafını, atın suyunu.
Sədrin, briqadirin gözündən iraq -
Bəzən qoruqlarda otarar onu.

Elə əzizləyər, tumarlayar ki...
Babamın kişilik dünyasıdı at,
Onun ürəyini, bir iş də var ki...
Hamıdan birinci duyasıdı at.

Kişinin ən yaxın sirdaşıdımı?
Gör ata necə də mehrini salıb..
Axı, ürəyində dava ilinnən
Bir oğul, bir kəhər həsrəti qalıb.

...Dava əzabını qarışqalar da,
Bütün cücülər də çəkərdi onda.
Bütün kişilər tək boranda, qarda
Atlar da cəbhədə əsgərdi onda.

Ötən ömür üçün qəribsəyirmi? -
Səksəni, doxsanı haqlayır babam.
Keçmiş bir ilxıdan yadigar kimi
Bir yorğa kəhər də saxlayır babam.

1971

## GÜRCÜ XORU

Dinləyər, dinləyər ulduzlu göylər,
Gürcü nəğmələri uzanar, gedər.
Dünya özu durub tamaşa eylər
Bu xalq orkestri susana qədər.

Sirri açılmayıb gürcü xorunun...
Gürcülər oxuyar kefləri köksə.
Gürcülər oxuyar, işdi birinin
Qəlbinə bir kədər, bir ağrı çöksə.

Haqq haqdı ədalət tərəzisində-
Düz baxa biləsən gözünə onun.
Nazlı gözəllərin şirinliyi də
Hopub çörəyinə, duzuna onun.

Bəlkə taleyini... uşaqlığını
Oyatmaq istəyər nəğmələriylə.
Hərdən kürlüyünü, şıltaqlığını
Ovutmaq istəyər nəğmələriylə.

Çiçəyi ballanar, otu ballanar
Üzüm salxımları dəyər, sallanar.
Sağlıqlar çoxalar, məclis hallanar
Gürcü xor oxuyar.

Sünbülü dən tutar, narı yetişər,
Ayları dolanar, ili ötüşər.
Kiminsə könlünə çınqı köz düşər
Gürcü xor oxuyar.

Yağar quraqlığa gur yağışları,
Torpağı canlıdı, daşı canlıdı.
Daha betər yağan qız baxışları -
Gürcü xoru kimi istiqanlıdı.

“Mənim Svanetim-planetim var“, -
Birdən gürcü xoru oxunacaqdı.
Qınında pas atıb xəncəri yatır
Bu xalqın həmişə xoru oyaqdı.

Ucadan danışar, ucadan gülər
Sıxılmaz, darıxmaz olsa harada.
Bir şirinlik qatıb, o, pay göndərə,
Xorundan bizə də - qonşulara da.

1971

***

Gələ bir təsadüf...
gülə bəxtimiz -
Bizə bir yarımçıq görüş vəd edə.
Nə qədər görüşmək istəsək də biz
Görüşə bilmirik, gülüm, hələ də...

Həmişə arzu ol,
şirin arzu ol.
Bəs niyə dönmüsən, qanadlı yelə?
Gendən görmək üçün səni bircə yol.
Durub gözləmişəm, saatlar ilə.

İtirdim səmtini küləyin, qarın,
Eşitsin sevgidən qəlbi inciklər.
Sənin yol getdiyin avtobusların
Hamısı yuxumdan gəlib keçiblər.

O kimdi sevgidə incik dayanan,
Kimdi, o gözəli hey anıram mən,
Uzaqdan alışan, uzaqdan yanan
Böyük sevgilərə inanıram mən.

Bəlkə bir təsadüf...
gülə bəxtimiz-
Bizə bir yarımçıq görüş vəd edə.
Nə qədər görüşmək istəsək də biz
Görüşə bilmirik, gülüm, hələ də...

1971

## YADİGAR

Qövr edər qəlbimdə dərd için-için
Ağırmış bir eşqin oduna düşmək.
Bəlkə sevgimizi yaşamaq üçün
Bu da bir adətdi -
şəkil dəyişək.

Səpərəm alışan, yanan çağıma,
Təbəssüm edərəm dərdi-sərini.
Sovqat saxlayaram qocalığıma
Sənin qız baxışlı şəkillərini.

Şəkil də ömürdü, qalar yadigar,
Şəkil də bir sığal, bir tumar istər.
Sevənlər sevgidə ürək bağışlar,
Məhəbbət, əzizim, etibar istər.

Ayrılıq qəlbimdə od çata-çata
Yağdırar həsrətin yağışlarını.
Şəkil istəyirsən apar yadigar,
Yadigar aparım baxışlarını.

1972

## BİR MƏHBUSUN İSTƏYİ

*Ustadım Söhrab Tahirə*

Vahiməli dəmir qapılar...
Dörd addım o yana-divar,
Dörd addım bu yana - divar.
Geniş çöl havasının azlığı,
Addımların küçələrdə dolaşmaq
imkansızlığı.
Beton döşəmələrdə
Ağır çəkmələr:
taraq-taraq...
Əsir səslər divarlara çırpılır,
məhbusun qulaqlarında
qırılır...
...Əsarətin dözülməz görkəmi
varmış.
Azadlıq əsarətlə duyularmış...
Bir dünyalıq azadlıq istəyən,

dörd divar arasında nə gəzir?!
Taraq-taraq...
Dörd addım o yana - divar,
Dörd addım bu yana - divar.
Yenə başlayacaq bir azdan

Sorğu-suallar.
Yenə həmin inad,
Həmin qüvvə.
Sonra da...həmin qərar...
Məslək nə gücə, nə də qanuna,
baş əyir.
Məhbus bir cild
"Nazim Hikmət" istəyir...
1972

***

Dayanmışam postda mən
Yuxum ərşə çəkilib.
Səmanın ulduzları
Mundirimə tökülüb.

Papağımda, toqqamda
Düymələrimdə ulduz.
Deyirəm ki, bu qədər
Axı, kimdə var ulduz.

Görən bilirmi bu dəm
Şirin-şirin yatan qız.
Bu gecə hey üstümə
Qar yağıb ulduz-ulduz.

1973

## TƏLƏBƏ DOSTLARIMA

*APİ: 34-cü qrupun tələbələrinə*

Mənim əzizlərim gəlin, gəlin siz!
Həsrət ürəyimi yaman göynədir.
Qayıtsın qayğımız, gərginliyimiz,
Yenə elə bilək imtahan gedir.

Görək neçə sönən arzumuz olub, -
Şeir qəlbimizi yenə isidə.
Təzə hansı tədbir keçirilibdi.
Bizsiz filoloji fakültəsində.

Valeh nəsə desin Cəlil sayağı
Bizim söhbətimiz yumorsuz olmaz.
Görən, Şəkidəki ələyrilərin
Kəsibmi kökünü o müxbir Abbas?

Doğma tələbəlik o eşqi, odu
Bir də ömrü boyu kim unudar, kim?
Bizə bir əyani Füzuli oldu,
Yanmağı öyrətdi Cavad müəllim.

Görək neçə sönən arzumuz olub, -
Şeir qəlbimizi yenə isidə.
Görən hansı tədbir keçirilibdi.
Bizsiz fioloji fakültəsində.

1974

## BİR KƏNDİN ÜSTÜNƏ PAYIZ ENİRDİ

Yarpaqlar yaralı əsgərlər kimi
Səngərə yatırdı, yerə sinirdi
İxtiyar dağları qubar alırdı,
Bir kəndin üstünə payız enirdi.

Bəlkə də qızılı rəngdən qızınıb,
Qəlbimdə qəriblik gümüldənirdi.
Sevincdən yazınıb, qəmdən yazınıb
Bir kəndin üstünə payız enirdi.

Şır-şır bulaqların gözü yol çəkir,
Bir də ki borclunu, borclu sağ istər.
Ürəyim bu payız bir vaqon təki
Ötən qatarlara qoşulmaq istər.

Keçirdi gözlərim önündən bu an
Neçə burulğanlar, neçə axınlar.
Yadıma düşürdü yaxın uzaqlar,
Yadımnan çıxmırdı uzaq yaxınlar.

...Toruna düşmüşdü söyüd küləyin,
Asıla qalmışdı gur saçlarınnan.
Bir kəndin üstünə payız enirdi-
Yapışa-yapışa ağaclarınnan.

1974

## BAKININ YAZI

Bakının bahara çıxan çağıydı,
Qızların yandırıb-yaxan çağıydı.
Sevgimin kükrəyib axan çağıydı-
Məni dəli etdi Bakının yazı.

Dünyada hamının bəlli umudu,
Qış öz gözlərini yaza yumurdu.
Qızlar söz umurdu, sevgi umurdu,
Məni silkələdi Bakının yazı.

Qəlbimdə bir ılıq yaz havasıydı,
Söyüd tumurcuğu çırtdayasıydı,
Ürəyim sevincdən partdayasıydı,
Məni xumarlatdı Bakının yazı.

Ünvan: Üzeyirbəy küçəsi idi,
Enişdən-yoxuşdan keçəsi idim...
Mən də milyonundan bircəsi idim-
Get, heç qorxma,-dedi Bakının yazı.

1975

## SİZİ GÖZLƏYİRİK

*Cəbhədə həlak olmuş*
*həmyerlilərimizin əziz xatirəsinə*

Hərəsi bir evin dirəyi idi
Getdi cəbhələrə əsgər oğullar.
Harda doğulmuşdu, harda sevildi,
Harda güllələndi o nər oğullar?!

Göynək arzu kimi artıb, göyərib,
Neçə min ürəkdə yaşar adınız.
Kiçicik kəndlərdə dünyaya gəlib.
Böyük şəhərlərdə heykəl oldunuz.

…Yollar da yuxulu əsgərlər kimi
Büdrəyə-büdrəyə Berlinə gedir.
Yox, yox, bu yollarda ölmədiniz siz!
Sizi gözləyən var gör neçə ildi -
Necə uzun çəkdi son döyüşünüz.

1975

## LAĞ ELƏMƏ

Bu qədər ağ eləmə
Demə kefin saz olar -
Dilsizə lağ eləmə,
Dilin danışmaz olar.

Dünyanın çox cövrü var
De tablaya bilərsən?
Kasıba lağ eləmə,
Kasıblaya bilərsən.

Lağ eləmə, dünyaya
Dünya çıxar əlinnən
Bəlalar çəkər başın,
Lağ söyləyən dilinnən.

1976

## SƏNİ GÖRMƏK

Dünya öz işində, öz axarında,
Dəli şimşəklərin yaz çaxarında,
Ömrün bu çağında, bu baharında,
Qorxuram mən səni görə bilməyim.

Yollara sancılan baxışım çoxdan
Üşüyür nahaqdan, donur nahaqdan,
Barı bircə yolla gendən, uzaqdan
Qorxuram mən səni görə bilməyim.

Duya bilməmişəm ötən yaşımı,
Ötəri qayğılar qatıb başımı,
Köhnə sədlərdimi kəsən qarşımı?
Qorxuram mən səni görə bilməyim.

Bu yollar səbrimdən gödəkdi indi,
Sinəmdə ürəyim kövrəkdi indi,
Ümidim tək səni görməkdi indi,
Qorxuram mən səni görə bilməyim.

1977

## QOŞMA

De, harda, nə zaman gəldin rastıma,
O pəri gözlərin durdu qəsdimə.
Ağrılar, əzablar mənə bəsdi nə?
Deyəsən, qarşıma tale sərt çıxıb.

Saçıma baxırsan, ağarır saçım,
Gedir əllərimdən cavanlıq tacım.
Sevmirsən, ay gözəl, nədir əlacım?
Alqış ürəyimə, yaş namərd çıxıb.

1977

## DOSTLARIM ÖMRÜMDƏ ZƏLZƏLƏDİLƏR

*Şair Hidayətə*

Bir dəli istəklə küləyim, qarım
Yoluma çıxdılar, əl elədilər.
Şerimdə zəlzələ gəzən dostların
Özləri ömrümdə zəlzələdilər.

Bir yaşıl ümidim qarşıma çıxar,
Qoymaz tənha qalım, hardasa bir an.
Mənim ki, ürəyim boylanar, baxar
Uğurlu, uğursuz misralarımdan.

Çəkilib bir küncə yanmaq istədim,
Ömür ki, fürsətmiş indi bir atım.
Mətləblər, dərinmiş-gec başa düşdüm
Şerdə tünlükmüş, sonra anladım.

Qəfil ildırımlar cumar üstümə,
Gur yağışlar yağar duyğularıma.
Küsənən tapılar bu ömrə-günə,
Küsənən tapılar qayğılarıma.

Qəlbimi bir istək çəkər, aparar,
İsidər könlümü qışın qarı da.
Şerimin qızıldan qonorarıdı
Payızın tökülən yarpaqları da.

Bir gün bir istəklə küləyim, qarım
Yoluma çıxdılar, əl elədilər.
Şerimdə zəlzələ gəzən dostların
Özləri ömrümdə zəlzələdilər.

1977

***

Dərdimiz tən, qəmimiz tən,
Günahkarıq ya sən, ya mən.
Biz bir idik ayrı ikən,
Ayrılmışıq birləşəndə.

Xəyalımız didik-didik
Hara gəldik, harda idik.
Sevgimizi saldıq itik,
Taleyimiz kürləşəndə.

Yaxına da gəlmək olmur.
Uzaqdan da görmək olmur.
Həsrətdən də kömək olmur
Həsrətimiz gurlaşanda.

1977

## MART AYINDA

Bax, gör necə bölünüb
Bu yan dağ,
o yan aran
Əştərək çiçəkləyib,
“Ağ ayı”dır Aparan.

1978

***

Görüş yollarına çıxam təzədən.
Geniş yollarına çıxam təzədən
Yenə də qabağa səhvlərim düşə
Daha nə isə...
Ya bir az gecikəm, ya da tələsəm.

Çağıram, çatmaya harayım, səsim,
Ağrılar, əzablar yenə cəm ola,
Mənim gözəlliyi sevmək həvəsim
Qorxuram, təzədən faciəm ola.

1978

## MƏRDLƏR, NAMƏRDLƏR

Ömrün hər anına, saatına bax,
Dünyanın günləri oxşar deyil ki...
İgid Koroğluya boy verən torpaq
Keçəl həmzələr də cücərdib bil ki...

Qəlbimdə ağrıyan bir dərd yaşayır
Ömrümə yoldaşdı bu hiss, bu duyğu;
Neçə ki, dünyada namərd yaşayır
Olmaz yerə qoymaq koroğluluğu.

1978

## YOLLAR, YOL GÖSTƏRİN PİYADALARA

Atlılar hər yerdən çapıb gedəcək,
Atların belində keçib gedəcək
Yollar, yol göstərin piyadalara
Piyada yolçular incik gedəcək.

Atlı çapmaq hara, yol-yoxuş hara?
Dünyanın çox işi qat-qarışıqdı
Yollar, yol göstərin piyadalara
Səfərə çıxana yol yaraşıqdı.

Sənin güvəndiyin at nallarının
Yollar ki, zərbindən tuluq-tuluqdu.
Dərə adlayası, dağ keçəsiyəm,
Nə də yorulası, inciyəsiyəm.
Bu ki, bəxtə düşən ömürdü-gündü,
Səbri tükənməyən bir yolçuluqdu.

Neçə yol büdrədim,
Yıxıldım, qalxdım
İnadım qolumdan tuta bilmədi.
Məni çox şöhrətlər unuda bildi,
Məni bu dərələr uda bilmədi.

Nadan badalaqlar, qəfil zərbələr
Hələ ünvanıma çatası çoxdu.
Piyada keçdiyim yoxuş yolların
Əvvəldən bilirdim, xatası çoxdu.

Ayaq üzəngidə əl də yedəkdə,
Gedən yolçulara tay tutma məni.
Bil payi-piyada, səbir tətikdə
Yollar keçəsiyəm, yubatma məni.

1978

## YOLLARA ÇIXMIŞAM

Ömür hövsələsiz çay kimi axar,
İllərə yetişməz, aylara çatmaz.
Dağlar pıçıltımı eşidər, baxar,
Hardasa harayım haylara çatmaz.

Adım anılmazmı tək bircə bənddə,
Bu dərd silkələyər, ayıldar məni.
Bəlkə yaşadığım bu kiçik kənddə
Hamıdan axırda sayırlar məni.

Yollara çıxmışam, mən bilə-bilə,
Axı, hər yolçuda bir ürək olmur.
Sənət də belədir, həyat da belə,
Əgər öyrənməsən, öyrətmək olmur.

Qatsa da başımı adicə iş-güc
Məni yırğalasa bir nənni kimi.
Çıxa bilməsəm də bu cazibədən
Mən xorda oxuyan müğənni kimi.

Hələ ki, bədxahın gümanı itir,
Bilirəm, büdrəsəm əl çalmağı var.
Mənim ki ürəyim bomba kimidi, -
Qəfildən sinəmdə açılmağı var...

1978

## DOSTUMA MƏKTUB

*Tələbə dostum Telman Hüseynova*

Bir kəndi özünə yurd eləmisən -
Orda günəş doğar, duman sökülər.
Boylanar dünyaya misralarından
Elin, doğma kəndin Otuzikilər.

Bostan da sulayar, şeir də yazar,
Əllərin iş-gücdən soyuya çətin.
Dünyanı lərzəyə salmağa hazır
Sənin sığındığın kənd planetin.

Dərədə dumanı,
Düzdə gülü seç,
Şer oxu dağlara - üşüsən harda.
Ucuz paltosuna sığışarmı heç
İlhamı geyinən şaxtada, qarda?!

Çöllər kürsün olsun,
oxucun Tərtər,
Bir dəli ilhamla elə boşal, dol.
Qoca Nizaminin sevinci Bərdə
Səndən şer istəyir, qardaş, hazır ol!

Demə ki, hər bahar doğula billik -
Güllərin gözündən baxa bilməcək.
Ən dayaz göllərdə boğula billik -
Dərin ümmanlara çıxa bilməcək...

1979

## İTHAFLAR ÇOXALIR MƏMMƏD ARAZA

Dağılar dünyanın sazağı, çəni
Şeir istəyinlə, oxucu qardaş.
Duyğuna, hissinə söykənər sənin
Körpü misraların bir ucu, qardaş.

Şeirlə, nəğməylə barlanar ürək
İlhamsız, duyğusuz təklənə bilər.
Zəif misralarsa ağır yük təki,
Oxucu könlünə yüklənə bilər.

Çiçək o çiçəyə,
bu yaz, o yaza.
Payız, o payıza oxşaya bilmir.
İthaflar çoxalır Məmməd Araza,
İthaflar Arazı oxşaya bilmir.

Mənim də köksümdə oxranar, dinər
Eh, cırnaq həsrətim yol gedəmmədi.
Zəif şeirlərim xəcalətlənər-
O qızın qəlbini fəth edəmmədi.

Elə qəribsədim bir sakit axşam
Göydə ulduz üçün, yerdə dağ üçün.
Yazımı-pozumu girov qoymuşam,
Məmmədi, Arazı oxumaq üçün.

1979

## UZAQ SEVGİLƏRİN HƏSRƏTİ BAŞLAR

Belə uzaqlıqda məğruram demə,
Bu yoxluq ömrümə demə dağ deyil.
İnanma o boyat sevincə, qəmə
Çoxu mürgülüdü, çoxu sağ deyil.

Onda möcüzəydi sözün, söhbətin,
Bilmirdim dünyanın harasındayam.
Selində qərq olub bir məhəbbətin
İtdim gözləriyin qarasında mən.

Arabir qəlbimi bir istək didər,
Yanar duyğularda odlanaram mən.
Bilsəm ki, gəlirsən,
bilsəm ki, əgər...
Dönüb uşaq ollam
şadlanaram mən.

Yuxu da ömürdü
salam, əlvida,
Bilə də bilmədim, arzun çindimi?!
Gecə bir göyərçin qondu yuxuma
Eşqin göy qanadlı göyərçindimi?!

O uzaq nidalar, o uzaq ahlar,
O uzaq haraylar qəlbimi daşdar.
Uzaq sevgilərin göynək həsrəti
Köhnə ürəklərdə beləcə başlar.

1980

## ƏGƏR SƏHVLƏRİNİ TƏKRARLAMASAN

Qatı şübhələrin ümidə dönər,
Kövrək qanadların bərkiyər bir az.
Həsrətin dağılan buluda dönər
Sinəndə sevginin göynəyi qalmaz -
Əgər səhvlərini təkrarlamasan.

Şirin xatirələr keçidi keçdi,
Üz tutub gedərsən hara aparsa.
Qarşında uçrumlar, uçqunlar heçdi,
Pəhsinmə büdrəmək qorxusu varsa -
Əgər səhvlərini təkrarlamasan.

Böyük istəklərdən keçmə, amandı,
Kiçik istəklər də bac verməz sənə.
Qəlbində bir arzu məşəli yandır
Duyan ürək olar, görən göz sənə -
Əgər səhvlərini təkrarlamasan.

Nə vaxt inamsızlıq doldu qəlbinə
Onda ölümünnən qabaq ölərsən.
İnamı əlinnən buraxma, yenə
Ömrü yaşamağa geri dönərsən -
Əgər səhvlərini təkrarlamasan.

Səni çaşdırmasa təsəlli, qılıq
Düşərsən əvvəlki cığıra, izə.
Çəkər əllərinnən yaxın ucalıq,
Durarsan zirvəylə onda göz-gözə -
Əgər səhvlərini təkrarlamasan.
1980

## MƏN BELƏ OLMAZDIM

Səni məndən elədilər,
Qəlbimə qor əlıədilər,
Hisslərimi taladılar-
Yoxsa, mən belə olmazdım.

O alqışlar, bu qarğışlar
Taleyimə nə bağışlar?
Quraqlığa gur yağışlar
Yağsa, mən belə olmazdım.

Deyilməsə söz vaxtında
Ağrısına döz vaxtında
İldırımlar öz vaxtında
Çaxsa, mən belə olmazdım.

1980

## GİZLİ SEVGİ

Bir yönüm uçrumdu, sudu bir yönüm,
(Gizlicə sevməyə ürək gərəkdi...)
Çox him-cim eləmə, başına dönüm,
Gizlicə sevgilər ürkək gərəkdi.

Beləcə sevərsən,
Zaman dayanar,
Günəş də batmağa tələsməz daha.
Möcüzə çoxalar...
Nağıl uzanar
Sonluğu hey qalar gələn sabaha.

1980

## QƏRİB İDİ, TELMAN İDİ, BİR DƏ MƏN

Yaraları köz-köz olub qaxsayan,
Sevgiləri ürəyində axsayan,
Yetimliyi bir-birinə oxşayan
Qərib idi, Telman idi, bir də mən.

Şüşə kimi çilik-çilik oxalan
Ey həsrətim, birdən-birə çoxalan,
İmzaların tünlüyündə yox olan
Qərib oldu, Telman oldu, bir də mən.

1980

## ÜRƏK BİLƏR

Bağlayıb açanı sənsən,
Kilidi, açarı sənsən,
Bilmirəm haçandı sənsən,
Bu həyətin başbiləni,

Yüz biləni çaşdırıbdı,
Söz biləni çaşdırıbdı,
Düz biləni çaşdırıbdı,
Bir xəlvətin çaş biləni.

Meh titrədər, yarpaq bilməz,
İldırımı hər dağ bilməz,
Səma duymaz, torpaq bilməz,
Bu yollarda daş biləni.

Kimi tapar, kimi dilər,
Kimi sızlar, kimi gülər,
Bilsə təkcə ürək bilər,
Göz də bilməz, yaş biləni.

1980

## BAKI

*Mənim ürəyimi buğda dəni tək*
*Qarışqalar çəkdi yuvalarına*
*Tahir Qurbanov*

Gecə də, gündüz də xəyalımdakı
Sənin surətindi, sənin çaların.
Mənim ürəimydə yerləşər, Bakı,
Yaşıl küçələrin, meydançaların.

Qayğılı, qayğısız, gur şəhər Bakı
Mənə ki, doğmadı harayın, hayın.
Mənim ürəyimdə yerləşər, Bakı,
O küləkli qışın, o qızmar yayın.

Yağar ürəyimə
Yağışlar yağar -
Elə sərinlədər bürkülərini.
Dağıdar şıdırğı qopan selləmə
Ögeylik, doğmalıq bölgülərini.

Balağı atdana-atdana gəzər
Subay qardaşlarım küçələrini.
Şair adaşlarım şerini yazar-
Ömürdən borc alıb gecələrini.

Hardasa uzaqda duman içində
Gedən qatarına əl eləyərəm:
"Salam, hey salam"
Sən mənim qəlbimdə ayrı biçimdə,
Sən ayrı ölçüdə yaşarsan, anam.

1981

***

Yad əllə dartılan quru yüyənsən,
Haraya çəksələr cəld yüyürsənsən,
Bütöv dərrakəsən, uzaq görənsən,
Mənsəbli, şöhrətli nadansan hələ.

Harda aş orda baş, hazırsan hər an,
Beşsən şeş yanında şeşə dayanan.
Tavan titrədənsən hay-harayınnan
Döşünə döyənsən aslansan hələ.

Qıvraq yerişlisən, iti səslisən,
Açıq ürəklisən, hal-həvəslisən,
Minnətdar olginən filankəslisən,
Özün də kişisən, ad-sansan hələ.

1981

***

Mən şair olardım...
Məni xırda-xırda məhv elədilər.
Məni bir şerin sevinci üçün
Gör neçə illərdi yol gözlətdilər.

1981

***

*1941-1945-ci illər müharibəsi veteranı*
*Əlləzoğlu Mahmud kişiyə.*

Çox gördün soyuq nə, gördün isti nə..
Adlar arasınnan seçildi adın.
Hansı döyüşdəsə düşmən üstünə
Silahın qurtardı... qolunu atdın.

1981

## NİYƏ BELƏ TOZLU OLDU BU YOLLAR?!

Ömür-gündü gündən-günə azalan,
Xatirələr çözəyində çözələn,
Anam, sən də öz-özünə ozalan:
Niyə belə tozlu oldu bu yollar.

Dərdlərimi özüm çəkdim içimə,
Bənzəmək də istəmədim heç kimə,
Ömrüm-günüm, sərt taledən incimə,
Demə: niyə tozlu oldu, bu yollar.

Belə gediş gülünc gələr çoxuna,
Boş söz-söhbət ürəyimə toxunar.
Baxışınnan çox gileylər oxunar:
Niyə belə tozlu oldu bu yollar.

1981

## SÖZ

Gülləni hədəfə söznən atıram,
Sözümü vermirəm heç ələ, qardaş.
Söznən oyanıram, söznən yatıram,
Söznən oynayıram mən hələ, qardaş.

Sözün yaddaşıdı sözün yaşıdı;
Ağızdan-ağıza söz qarıyacaq.
Dibinə su töksən ağac boy atar
Dibinə su töksən söz quruyacaq.

Neçə söz çəməni gömgöy, təzətər
Çimdinə-çimdinə hey söz yığıram.
Yıxıram qorxulu düşməni söznən,
Mən öz öyümü də söznən yıxıram.

Kasıb yatıb-durub itini öyər,
De bunnan savayı bir işi nədi?
Arvad gözlərinin odunu yeyər
Kişi ki, sözünün ətini yedi..

Gedirəm, gəlirəm boşu-boşuna
Xəyaldan şirin kam almaqdan ötrü.
Bir çöpün yiyəsi ola bilmirəm
Sözümün yiyəsi olmaqdan ötrü.

Qıvrılıb ilan tək qabıq qoyuram
Mən dizə çökürəm sözümün üstə...
Çörəyim dizimin üstdə olmasın,
Misralar yazsam da dizimin üstə.

Qorxaqlar dünyada hələ qan deyir,
Ağıl göməşdirir, əl göməşdirir.
Tərəflər meydanda pəhləvan deyil,
Tərəflər hələ ki, söz güləşdirir.

Uşaq xəylında aldanan kimi,
Başımda bir şirin nəşəli hava.
Durub oyuncaqla oynayan kimi
Söznən oynayıram mən binəva da.

1981

## BİR QIZ, BİR OĞLAN

Axıra çatacaq bu söhbət, bu söz,
Sonra tərəddüdlər yetəcək sona.
Bir vaxt ürəyində qaraltdığın köz
Çətin ki alışa, çətin ki yana.

Qeybətlər sönəcək sevgimiz kimi,
Sənin yaddaşında nə qalacaq, nə?
Ala gözlərində buz salxımlanıb,
Sinəmdə çatdığın bu od-ocaq nə?..

Piyada qalmışam, yolum, izim qar
Qarşıma atdığın qayadı sənin.
Dünyadı, sığallar, xumarlandırar,
Bir gün də silkələr, ayıldar səni!

Soyuq küləklər də elə əsər ki,
Arada nə savaş, nə də barışıq.
Bir zaman ayrılıb görəcəksən ki,
Ürəyin bomboşdu, başın qarışıq.

Bir sevgi təzədən bir fürsət güdür,
Keçilən yolları qayıtmaq olmur.
Nə qədər xatirə kor mürgüdədi,
Vallah, xatalıdır, oyatmaq olmur.

Bir günahsız sevgi, eh, təşnə-yanıq…
Sonra ayılarsan, sonra gec olur.
Bir oğlan yaşayır ürəyi sınıq,
Bir qız təəssüflə saçını yolur.

1981

## DAĞLAR

Şimşəyinin çaxışına,
Buludunun yagışına,
Sellərinin axışına,
Könlüm darılmaz-darılmaz.

Oldun mənim din-imanım,
Hər daşına qaynar qanım,
Yüz illər keçsə peymanım,
Əhdim qırılmaz-qırılmaz.

O gözəlin, yaraşıgı,
Mat eləyib hər aşıgı...
İlk sevgimin gur işigı,
Burda qaralmaz-qaralmaz.

1981

***

Bu necə soraqdır yol gəlib-gedən,
Tərpətdi ovunmuş ürəyimizi.
De ki, ayrılmışıq bu cazibədən,
De ki, göynətməyir bu həsrət bizi.

Ay-intizar yüküm, söyləsəm qorxma,
Uzaq təsəlli də desəm düz olmaz.
Uzaq həsrətlərim girər yuxuma,
Həsrətlər yuxuda köynəksiz olmaz.

İnadım gözündən keçdi çoxunun
İnadım əriyib hələ dağ olmur.
Yarıyuxuluyam, yarıyuxulu,
Yarıyuxulardan ayılmaq olmur.

Yoxla ürəyimi öz istəyincə,
Sonra baxışınla sığalla, tanı.
Gecələr həsrətim qatardan öncə,
Oyadar gözətçi budkalarını.

Səni də, səni də bir dərd aparır,
Tavanı dağılmış bir alaçıqsan.
Həsrətim yüyürər üstünə sarı,
Sən əli yaylıqlı yollara çıxsan.

1982

## SERLƏ SÖHBƏT

Mənim görüləsi çox işim qalıb,
Başımdan aşıbdı ev qayğılarım.
Neçə uzaq-uzaq səfərim qalıb,
Uğrunda ölməli görüşüm qalıb.

Yanından keçəmməz havayı ad-san,
Ələ ələyində, qovur sacında.
Uzaq nağıllardan gələn işıqsan -
Mən də ki, qalmışam yol ayrıcında.

Hələ görüləsi çox işim qalıb.
Hələ neçəsi də düşüb baş-ayaq.
Vaxt olub bir misra yazammamışam,
Bütöv bir gecəni qalsam da oyaq.

Xəcalət gətirir soyuğu yaşın,
Özü də müdriklik vaxtına çatır.
Hələ şerlər var yazammamışam,
Qəlbimdə nisgilli ağrılar yatır.

Gördün ki, quruyam, susuzam, daşam,
Elə axşam-səhər möhnət ver mənə.
Dolu ürəyimi boşaltmamışam,
Bir azca səbr ver, möhlət ver mənə.

Boynumdan günahm asılan kimi
Sinəmdə ürəyim qorsuz ocaqdı.
Təzə şerlərim yazılan kimi
Köhnə günahlarım yuyulacaqdı.

Hələ ki, əlində bir gur çırağın,
Həm də ki, ay ürək, yanar çağın var.
Ya yol gedə-gedə ulduz olmağın,
Ya da bir qəfləti uduzmağın var.

Yanından ötəmməz havayı ad-san,
Ələ ələyində, qovur sacında.
Uzaq nağıllardan gələn işıqsan,
Mən də ki, qalmışam yol ayrıcında...

1983

## ÜSTÜMÜZDƏN BİR PAYIZ DA ADDADI

Aylar, illər çözələnər, ötüşər,
Qara saça qırov düşər, dən düşər,
Vaxt ötüşər, ömrə-günə çən düşər,
Üstümüzdən bir payız da addadı,
Bu payız da qəlbimizi oddadı.

Yaylıq alıb o gözəlin əlləri,
Başı üstdə dönə-dönə yellədi.
Qova-qova küləkləri, yelləri
Üstümüzdən bir payız da addadı,
Bu payız da qəlbimizi oddadı.

Səbr-gödək, ömür-girov, yol-uzun,
Görüşünü çox gözlədim o qızın.
Sularında üzəmmədim Arazın,
Üstümüzdən bir payız da addadı,
Bu payız da qəlbimizi oddadı.

Çatar sənə indi nələr çəkdiyim,
Qolu sınsın, evi yansın təkliyin,
Duydum nəymiş oxuduğu kəkliyin
Üstümüzdən bir payız da addadı,
Bu payız da qəlbimizi oddadı.

1983

## DÜNYAYA DƏYƏR

Qəlbimdəki narahatlıq, axı, nədi
Bu dünyanın ədaləti qəribədi:
İgid çox vaxt yoxsul olub.
Zaman-zaman haqq qul olub.
Zülmətlərə nifrət səsi
Qabiliyyət zəlzələsi
Dünyaya dəyər.

Dünya yatar bir körpənin gözlərində
Arzu yaşar, ümid yaşar
anaların sözlərində
ana yanar od kimidi
ana ümidi
dünyaya dəyər

Xatirələr dünyasına düşüb yaşar
Baxışlara köz qarışar
Ağızlarda söz alışar
Ömrü-günü saya çəkən
əllərində qızıl təsbeh
bir də çəlik,
Bizim müdrik qocalarda
söhbətcillik
dünyaya dəyər.

Öz yeri var hər adamın
təki başa
təki başıboş keçməsin
Bir məclisdən bir nadanın
pərt getməsi dünyaya dəyər.

1983

***

Olur ki, ilhamım susur, dinməyir,
Kəmfürsət atdığı daşa tuş olur.
Köhlənim tövşüyür, çıxa bilməyir,
Qarşımda nə qədər yol-yoxuş olur.

Xəyanət, haqsızlıq cücərən yerdə,
Bilinmir kim haqsız, kim haqlı olur,
Bir cürətli addım, bir iti zəka
Qeyrətsiz əliylə şilləlnəndə
Günahsız ürəyim günahlı olur.

Hələ arzular var tumurcuqdular,
Dünya açılmamış qönçədi hələ.
Yekəqarınlar var boş tuluqdular,
Əlləri, qolları çömçədi hələ.

Qorxaq var, dünyanı hədələməkdə,
İgid var, asılıb dar ağacından.
Hələ millətlər var, yatır bələkdə
Dağ da var, çıxammır dağarcığından.

Harda ki, ilhamım susur, dinməyir,
Kəmfürsət atdığı daşa tuş olur.
Köhlənim tövşüyür, çıxa bilməyir,
Qarşımda keçilməz yol-yoxuş olur.

1983

## QARIŞIQ

Qışı, yazı yollar yoran,
Durnalardan xəbər soran
Arasında sərhəd duran
Ulusum, elim qarışıq.

Göyümnən baxan ulduzum
Salxım-salxım, düzüm-düzüm...
Dağlarımda qarım, buzum,
Dərəmdə selim qarışıq.

Heydərbabam, Savalanım,
Gəlim başına dolanım.
Bir qıy çəkim havalanım
Öləndə ölüm qarışıq.

1983

***

Mənim qızım şirin-şirin dil açır,
Təzə-təzə addım atır, qol açır.
Sanıram ki, yanağımda gül açır,
Hər öpəndə atasının üzündən.

Hər hayıma, hər hoyuma çatandı,
Sevincimə o ilk addım atandı,
Günc-bucağı bir-birinə qatandı -
Oğurlanıb anasının gözündən.

Tay tutmaram onu neçə oğula -
Hər arzumda, ümidimdə doğular...
Dönər şirin bir nəğməyə, nağıla -
Saz götürüb nənəsinin sözündən.

1983

***

Sənsiz duyğularım ömrə dərd əkər
Görən, bu dünyada axı, kimimsən?
Sən mənim əfsanəm, nağılım qədər
Sən mənim əl çatmaz həqiqətimsən.

Baxışın
Gözümdə sancılıb qalıb,
Ancaq,
Xəyalımda sən çən kimisən.
Gözlərim hər yerdə səni axtarıb
Doğrusu,
Sən mənə vətən kimisən.
Sənsiz sevinc itər,
Qəm itər belə,
Yoxluğun qaranlıq bir dibə bənzər
Sənsiz beynimdəki fikirlər belə,
Bir didərgin düşmüş qəribə bənzər.

1984

***

Axtarsam gözüm yorulmaz,
Sürünsəm dizim yorulmaz,
Çətindir bizim yolumuz,
Qələm, sənə qurban olum.

Qalmışam qulağı səsdə,
Tut əlimdən səfər üstdə,
Durnalardan lələk istə,
Qələm, sənə qurban olum.

Şöhrətinə çatmaq olmur,
Kölgəndə də yatmaq olmur,
Sehrinə batmaq olmur,
Qələm, sənə qurban olum.

Bir buludam boşalmağa,
Köyrəlməyə, yumşalmağa,
Haqqınmı var korşalmağa,
Qələm, sənə qurban olum.

1985

## SALAM, SERGEY YESENİN

*S.Yeseninin 90 illiyinə*

Salam, Sergey Yesenin
otuz yaşlı,
mavi göz
saçları sünbül oğlan.
Doxsanı tamam olan
Rusiyanın ən cavan,
ən istəkli,
ən ərköyün şairi.
Doxsan yaşın mübarək
Doxsanında bu cavan
Ucalığın mübarək!
otuzunda otuz qat
qocalığın mübarək!
Cavanca ölümünlə
Heyf aldın dünyadan
o vaxtsız ölümlərdən,
Günahsız ölümlərdən.
Səni qocaldammadı -
yarpaqlarla tökülüb
küləklərlə hayqırıb,

Sularla axan-zaman.
Sergey adda körpəcə

Uşaq görsəm harda mən
Sanıram ki, o sənsən
Sənə ömür kəm deyil
Lap min il də istəsən.
O boy-buxun, o qaş-göz
O dərrakə, o ağıl
Min il də cavan qalar.
Bir də necə qocalar
Ryazan göylərində
Yanan parlaq ulduzlar.
Necə qocala bilər
Ağcaqayın vüqarı
Ana Volqa şıltağı
Ana Volqa axarı.
Salam, Sergeycan, salam
Doxsanında, yüzündə
Sonra, sonra
gələcək hər yüzündə
Dəyişməz bir ünvan var
Bu qoca yer üzündə.
Nə qədər misralar var
Neçə şairlər yaşar
Öz donunda, dinində
Adam titrəyir, qardaş
Otuz yaşdan boylanan,
Bu cavanın önündə.
Vaxt axır, hey su kimi
Mənsə qırxa çata-çat.
Eh, bu nasaz dünyada
Gözüm-könlüm gileyli

Ömrüm neçə yerdən çat.
...Heç bilmirəm nədəndi
Bu kövrək misraların
Fil dözümü, çəkəri?
Salam, Sergey Yesenin
Güllənі güllə atan
Rus şeirinin ən cavan
Ən döyüşkən əsgəri.

1985

## GÖZƏLDİ DÜNYA

Oynamaq istədim saz havasında,
İlin bu çağında yaz havasında,
Mənim ürəyimin öz havasında
Gözəldi, gözəldi, gözəldi dünya.

Bu yazın qəlbimdə sevgisi dərin,
İstəyi mübarək, arzusu çin-çin.
Bəyaz yuxusunda körpələrimin
Gözəldi, gözəldi, gözəldi dünya.

Uca dağlarından çən çəkiləndə,
Mehin dodağıyla gül öpüləndə,
Dəyməyin, dəyməyin bir çöpünə də
Gözəldi, gözəldi, gözəldi dünya.

1985

## NİYƏ DƏYDİM XƏTİRİNƏ O QIZIN

Boyat həsrət uzaqlardan ünlədi,
Ürəyə bax, kaman kimi inlədi.
Gül bənizi dümanladı, çənlədi
Niyə dəydim xətirinə o qızın.

Bəlkə, bəlkə duyammaram ölüncə,
Bu mürgüdən oyanmaram ölüncə
Günahımı yuyammaram ölüncə
Niyə dəydim xətirinə o qızın.

Göynət məni, a sevgimin gur odu.
Qınamıram nə yaxını, nə yadı.
Heç bilmədim, necə oldu, nə oldu
Niyə dəydim xətirinə o qızın.

1985

## BİR KƏND GÖRDÜM

*Zəngibasarın Zəhmət kəndində oxunun bu şeir 1986-cı ildə İrəvanda çap olunan "Yazılmamış şeirlər" kitabınnan çıxarıldı*

Bir kənd gördüm
Həsrət-həsrət baxan yerdə.
Zəmi gördüm, kəndçi gördüm
Lap günəşə yaxın yerdə.

9 May bayramıydı...
...Ana gördüm qəhərliydi
Bir gözümüz sevinc dolu
Bir gözümüz kədərliydi.

Heykəl olan əsgər vardı
Heykəl olan adlar vardı.
O adları öpdük-öpdük
O adların önündə biz
Sükut etdik, dizə çökdük.

Kövrəlmişdik o anda biz
Əsəbimiz tarım-tarım.
Sonra xeyli şer oxudu
Mənim şair qardaşlarım.

Alqış gördüm sonsuz, geniş
Mən Zəhmətin düzü boyda.
Azərbaycan gördüm orda
Od yurdunun özü boyda.

1985

## MƏNİ QORXUDUR

Söz üstündə çox aslanlar kiridi
Kim açacaq söz ağzından kilidi?
Mən dumanda yol gəlirəm min ildi
Bu açılmaz duman məni qorxudur.

Daşa tutdum, daş oxudu oxumu,
Səsləndirdi babaların ruhunu.
Yozammaram bir naqafil yuxunu
Dərviş babam, güman məni qorxudur.

Qovhaqovda ayrı düşdük, gen düşdük
Ayrılığın içindəmi ölmüşdük?
İndiyəcən yuxularda görüşdük.
İnnən belən yaman məni qorxudur.

Qaya kimi sərt qalasan-arxasan,
Axıracan mərd qalasan-arxasan,
Ölüm nədi, ölümnən də qorxasan,
Ürəyimə daman məni qorxudur.

1985

## MƏN SƏNİN YADINDAN ÇIXAN DEYİLƏM

İnad baxışların yollara baxar,
Çaxar, gözləriyin şimşəyi çaxar,
Ay göydə diksinər, ulduzlar axar
Mən sənin yadından çıxan deyiləm.

Ya dostun, tanışın toy-düyünündə,
Ya qəmli çağında, ya xoş günündə,
Sinəndə ürəyin hər döyünəndə
Mən sənin yadından çıxan deyiləm.

Hər gün oxşayanda balalarını
Geyəndə sevdiyin paltarlarını,
Görəndə yolların qatarlarını
Mən sənin yadından çıxan deyiləm.

Tale vəd eləsə bir gün görüş də
Cavanlıq atından, eh, düşhadüşdə,
Harada olsan da işdə, görüşdə
Mən sənin yadından çıxan deyiləm.

Qalsan neçə illik intizarda sən,
Qəlbinə xal düşsə, saçlarına dən
Çıxsan da sevgimin cazibəsindən
Mən sənin yadından çıxan deyiləm.

Günü-gündən artan qorxular - şirin
Səbrin gedə-gedə yuxalar - şirin.
Sənə bağışlanan yuxular - şirin
Mən sənin yuxundan çıxan deyiləm.
1985

## VƏTƏN SİLSİLƏSİNDƏN

Boyat-boyat hicranınla,
Qarıdasan, Vətən, məni.
Bir gün Araz qurumasa,
Qurudasan, Vətən məni.

Kotanınam, hodağınam,
Hər dərdinə ortağınam,
Görsən quru budağınam,
Arıdasan Vətən, məni.

Bağında gülşən olmağa,
Dağında yovşan olmağa,
Çölündə kövşən olmağa,
Yaradasan, Vətən, məni.

1985

## TURALA

Turalım minən atların
Arzudandı qanadları
Dağlar aşdı, yol qatdadı,
Arzusuna qurban olum.

Tanrım kimi xilası var,
Ağır eli, ulusu var.
Bir qurbanlıq quzusu var,
Quzusuna qurban olum.

Sevincim hay-harayımdı,
Hoy çağıranda hoyumdu,
Ruzum, qismətim, payımdı,
Ruzusuna qurban olum.

Söz içimdə aram-aram,
Göynər müdam, göynər yaram
Yuxum gəlsə yatammaram
Yuxusuna qurban olum.

1986

## ÖMÜRLƏR, TALELƏR...

*Bir dəfə yuxuda gördüm ki,*
*şəhərə köçürəm, vahimələndim*

Gördüm otağımda günəş oyanır,
Gördüm pəncərəmdən özgə boylanır.
İstisi, sığalı canıma keçən
Atam tək, anam tək qayğımı çəkən
Evimin hər küncü qınadı məni,
Hər daşı, kərpici qınadı məni.

Atamcan, atamcan, atamcan, atam!
Dünya o dağların ətəyindədi.
Dayanıb beləcə mat qalır adam
Fırlana-fırlana təkərlər üstdə
Ömürlər, talelər yedəyindədi.

Ömrün bu çağında, bu vədəsində
Niyə belə çəkir bu şəhər məni.
Bəlkə bir ötəri şöhrətdi çəkən -
İstəmir yaşada birtəhər məni.

Şöhrət - göylərdəki ulduz kimidi,
İsitməz qəlbimi o soyuq ocaq.
Şöhrət - qızıl yükülə dolu gəmidi
Tufanlar qoynundan necə çıxacaq.?

Dayanıb beləcə silkələnmişəm
Mən fikri dolaşıq, qaşları çatıq.
Ucuz şöhrətlərə verdik kəndləri,
Ucuz şöhrtlərə yurdları satdıq.

Bu geniş şəhərdə, bu dar şəhərdə
Neyləyim, neyləyim yaşın qırxında.
Bu geniş şəhərdə, bu dar şəhərdə
Ömrün sahilində, yol qırağında.

Nəydi yol azdıran bu qəfil istək,
O uca dağlarda qalanım nədi?!
Mənim təmizliyim, mənim paklığım
Məni səhvlərimdən geri istədi.

O elin, o yurdun qoynunda qalan,
Kimsədən, özgədən qayğı görməyən,
Minnət götürməyən, söz götürməyən
Ölüm qabağında ay uşaqlığım!
İndi əl eyləyib vidalaşımmı,
Necə vidalaşım, ay ucalığım?!

Atamcan, atamcan, atamcan, atam!
Dünya o dağların ətəyindədi.
Dayanıb beləcə mat qalır adam
Fırlana-fırlana təkərlər üstdə
Ömürlər, talelər yedəyindədi.
1986

## MİKAYIL MÜŞFİQƏ

Söz-sözə calaqdı, söz sözü çəkdi,
Qəriblər dünyada qəmgin, ürkəkdi,
Gördüm ki, çox ürək sınıq ürəkdi,
Sınıq sevgilərə gözəyin məni.

Dünyanın qəminə çökən şairlər,
Qızların nazını çəkən şairlər,
Görkəmli şairlər, nakam şairlər,
Nakam ömürlərə gözəyin məni.

Elə istəyirəm axtarım səni.
Mindiyim boz yabı aparmır məni,
Nə qədər boşaldım dartıq yüyəni,
Bir köhlənə qanad gözəyin məni.

1986

***

Ömrümdən boy atmaq
istəyən günlər var -
beynimdən nur əmir,
qanımdan qan içir.
Ömrümdən boy atmaq
istəyən günlər var -
Ürəyimə yol gələn
infarkta minnətçi.

1986

***

Didik-didik torpağınam,
külək salmış yarpağınam,
güllə deşmiş bayrağınam,
vətən, vətən, vətən sənin.

Hər parçan bir bayraq boyda,
Aran hayda, yaylaq hoyda,
Doğransam da qulaq boyda,
ötəninəm, vətən sənin.

Nə gördün yad gəlmələrdə,
köntöy, pəltək kəlmələrdə,
dolu gedən, gəmilərdə
itəninəm, vətən sənin.

1986

## NƏYİNİ DEYİM Kİ, MƏN BU ŞƏHƏRİN

Elə gün oldumu, deyə bilmərəm,
Həsrətli gözümdə yaş görünməyə.
Bircə şax köynəyim olmadı, Allah,
Bircə gözəlinə xoş görünməyə -
Nəyini deyim ki, mən bu şəhərin.

Əlləri uzalı alıcı idi
Cibimdə bir əzik üçlük görəndə.
Durub mat qalırdım,
Söz acı idim
Hərədə bir cürə biclik görəndə. -
Nəyini deyim ki, mən bu şəhərin.

Kasıbı yamanca pərt eyləyəndi,
Qəribin yamanca qənimi idi.
Üzləri buz edən, sərt eləyəndi,
Baş açmaq olmurdu,
Kim-kimə idi. -
Nəyini deyim ki, mən bu şəhərin.

Ciyərimdən keçən acı küləyi
Cibindən keçirdi yoldaşlarımın.
Çərxi ağır idi qoca fələyin,
Əlləri körpəydi qardaşlarımın -
Nəyini deyim ki, mən bu şəhərin.

Dərdimin içində ürəyim keyik,
Özümü bir yandan yad sıxışdırır.
Doğmalıq, ögeylik eynəyi geyib
Özü öz içində ad sıxışdırır -
Nəyini deyim ki, mən bu şəhərin.

Dərd odur cələyə başından düşə,
Bir dəli köhləni baş qaldırmaya,
Axı, nə deyəsən, nə söyləyəsən
Bu gözçıxarmaya, qaşqayırmaya -
Nəyini deyim ki, mən bu şəhərin.

Bu da göz-görəsi göz götürməyi,
Əlini əl tutub söz götürməyi,
Nəyini deyim ki, mən bu şəhərin.
Daha hönkürməyə lüzum olmaya.
Nəyini deyim ki, mən bu şəhərin -
Üz tutub getməyə üzün olmaya,
Nəyini deyim...

1987

## NƏ VAR Kİ...

Bir toxum ki, namərd əllə səpilə
Qara tikan qara çəpər çəkilə,
İtən itə, solan-sola, sökülə,
Gedən yaza, gələn qışa nə var ki.

Saman altdan kirimişcə su axırsa,
Baş bədəndən, bədən daşdan ağırsa,
Göz, eləcə, şüşə təki baxırsa
Gurşad saça, pırpız qaşa nə var ki.

Fikrim hələ dara düşər, boğular,
Nə çənsiyər, nə də ki sis dağılar.
Bir kəmfürsət əlləriylə ağıla
Qolazlanan qara daşa nə var ki.

Sim oxumaz sazda pərdə düşərsə,
Əyri bitər, düz hər yerdə düşərsə.
Açar olub dərdin dərdə düşərsə
Ya bacıya, ya qardaşa nə var ki.

Tüstüm uçur, köz üstümə qayıdır,
Fikrim keçir söz üstümə qayıdır.
Nə deyirəm öz üstümə qayıdır
Beyni boş-ağlı çaşa nə var ki.

Yanıq həsrət gözlərimdə yaş-gilə
Saçlarıma qar işığı xoş gələr.
Yavaş-yavaş qənşərimə tuş gələn
Qırx yaşa, əlli yaşa nə var ki.

1987

***

Mənim eləydiyim yaxşılıqlar -
Bəlkə acizliyimdi, pisliyimdi.
Bəlkə ən ağıllı yaxşılıqlardı,
Bəlkə ən qəddar pisliklərim.

Məni tanıyın pisliklərimdə,
(öz sözünüz olmasın)
bəd xasiyyətimdə.
Ama belə bilmədiniz
heyif, bilə bilmədiniz
pisliklərimin içindədi
həm də şam alovu kimi titrəkdi,
bir cücərti kimi kövrəkdi
görmək istədiyiniz
yaxşılıqlarım.
Gül tikanına bənzər
pisliklərim,
A mənim istəklərim!
əlinizə batsa,
dilinizə, nə bilim, gözünüzə batsa
deyinə-deyinə getməsəniz,
Onda bilirəm ki,
Kişisiniz!

1987

***

Sən elə duruydun
Suüzü kimi.
Sən elə təmizdin
Göyüzü kimi.
Sən ki qatlanmazdın
Mərd dizi kimi.

Suüzü bulana bilər
Göyüzü buludlana bilər.
Necə bilirsən, əzizim,
Mərd dizi qatlana bilər?!

1987

## OLUR

Doğranam mərd tiyəsində
Mərdin də mərd rəhmi olur.
Bir namərdin sinəsində
Görəydim, ürəkmi olur?!

Sellər yusa ətəyini,
Yellər döysə örpəyini,
Qərib çalsa ürəyini,
Ağlayan tütəkmi olur?

Köksüzsə ad-san basılar,
Arxasız asan basılar.
Tək olan aslan basılar
Aslan olan təkmi olur?

Sərt sim sınar sərt çəkəndə,
Dərd qovrular mərd içində
Tanrım, yüz-yüz dərd içində
Bir dərdi çəkməkmi olur?

Ha yüz ilə, ha yüz elə,
İnanma əyri düzələ.
Könülsüz gedən gözələ
Ömür-gün göyçəkmi olur?

Uzaq-uzaq sədasından,
Bal yuxunun butasından
Tahir-Zöhrə xatasından
Qayıdıb dönməkmi olur?

1987

## YADIMIZA NƏ GƏLİR

Yadımıza nə gəlir,
Nə gəlir yadımıza, qardaş?
Karvan-karvan dəvələr gəlir.
Uzuq-uzaq yollar gəlir.
Gələ-gələ nağılımızdan gəlir
Gedə-gedə ağlımıza gəlir.
Elə bilmə lalıq,
Qal oğlu qalıq.
Ayağımız üstən ayaqla basılı
bir xalqıq.
Sıxıla-sıxıla bir yanımız
Borçalıdan gəlir.
Sazımız-sözümüz
qərib-qəmgin Göyçədən gəlir.
“İrəvanda xal qalmadı” -
uzağımızdan gəlir,
mehrimiz, ülfətimiz
ocağımızdan gəlir.
Şirinliyimiz, doğmalığımız
uşağımızdan gəlir.

Bu il də qışımız sərt gəlir
dağdan gəlir, düzdən gəlir.
Qalaq-qaytaq həsrət dolu
Buludlar Təbrizdən gəlir.
Kəhər-kəhər atımız gəlir.
Atlar üstə adımız gəlir.

Ağır yolların altından
şimşəkqanad bayatımız gəlir.
daha nəyimiz gəlir...
Araz axır dizdən gəlir
Suyu gözümüzdən gəlir.
Başımıza nə gəlirsə
Qardaş, özümüzdən gəlir.
Vallah, özümüzdən gəlir.

Oktyabr, 1987

## SUSMUŞ HÜNƏRƏ ELEGİYA

*... Bir ədəbi məclisdə filosof Asif Əfəndiyevə "qələmdaşlar" hücum elədi. Bu, haqqa hücum idi. Haqq büdrəsə də yıxılmaz, bir az ləngisə belə...*

Dəli şimşəklərin qılıncı iti
İldırımlar nədi nəhəng dağ üçün.
Sənin susmağına alqış deyərdim,
Əgər susurdunsa, açılmaq üçün.

Acı tufanlardan kənar olmayıb,
Nəyə bənzəyirsən qasırğa yıxmış,
Elə bil sən adda hünər olmayıb
Elə bil sən adda bir kimsə yoxmuş.

Kölgələr xəlvətcə artar, yekələr,
Qəlbi qaraların niyyəti kindi.
Hər küncdə, bucaqda namərd kökələr,
Əgər seyrəlirsə kişilik indi.

Niyə uzadasan mətləbi qəsdən -
Min yol düşünmüşəm azından, axı.
Cürət doğranarmı dərisi üstə
Qeyrət vurularmı ağzından, axı.

Yoxsa ki, özünü yandırdı odun
Qaysağı didilmiş bir yara idin.
Bir küncə atıldın gərəksiz oldun,
Düşmənə atılsan qumbara idin.

Hardasa biqeyrət daş diyirləyir,
Yollar əyalət duyğularıyla.
Hayıf ki, istedad baş girələyir,
Xırdaca ev-eşik qayğılarıyla.

Əgər hünərsənsə, çıx hünər kimi,
Güvən sağ qoluna, sağlam qoluna.
Əgər hünərsənsə doğ hünər kimi,
Əgər hünərsənsə qayıt yoluna.

Qulağa çatmayan bu səs sənindi,
Dərya dibindəki uğursuz gəmi.
Bədxaha vermisən fürsəti indi
Yaşarsan, hardasa təsəlli kimi.

1987

## ÇIXIB

Məhəl qoyma boş başlara,
Əvvəl-əvvəl dili çıxıb.
Yüyürüb ağır daşlara,
Ağlı çaşıb, əli çıxıb.

Səmti olmaz hər küləyin,
Mərdə qurulan kələyin.
Namərd, sənin güvəndiyin
Bir nataraz dəli çıxıb.

Laxalar çaylar qurudur,
Milçəklər filləri udur,
Məni dərdə salan budur:
Fərələr qüvvəli çıxıb.

El gücünü çəngə görən,
Nə deyir o cöngə görən?
Şair, sənnən cəngə girən
Bir çıxdaşı elin çıxıb.

1987

## NAĞIL

Bir köhnə ağrı tək düşər bu gecə
Bilməzsən bir damcı yaş gözlərindən.
Sənin gecələrin bax, göz-görüncə
Necə sehrliymiş gündüzlərindən.

Bir qatar fitinə yuxun dağılar
Fərqinə varmazsan kimdi darılan.
(Darılar, darılar, ərin darılar)
Yuxu doğrayarlar yol qatarları
Eh, bircə sənsənmi yuxusu haram?!
Mələk-poçtalyonlar tən gecəyarı
Atar yatağına nağıl-teleqram.

...Bir nağıl yuxudan bax mən də hövləng
Qalxıb yastığıma tez dirsəkləndim.
Gördüm şəhəriyin süni peyki tək
Dolanır başına balaca kəndim.

1988

## BİZİ YURD SAXLAR

Kimsə nağdı bəyənmirsə,
Sözü söznən deyəmmirsə,
Söyməlini söyəmmirsən
Çaglaya-çağlaya, könlüm.

Köşə çəkib uzatdılar,
Şişə çəkib közərtdilər,
Dişə çəkib qocaltdılar,
Yoxlaya, yoxlaya, könlüm.

Cana doyub yetərsənmi,
Əl yelləyib gedərsənmi
De bərkiyib bitərsənmi,
Laxlaya-laxlaya, könlüm.

Asanca sənnən keçərlər,
Əzabından gen keçərlər,
Bir gün üstündən keçərlər
Ağlaya-ağlaya, könlüm.

Bir gün bədxahın haqlasa,
Daş üstə daşın qalmasa,
Sənnən bir nişan saxlasa -
Yenə yurd saxlayar, könlüm
Bizi yurd saxlayar, könlüm.

1988

## DƏRD DƏ ŞADLANMAQ İSTƏYİR

Ölüm adamı gözünnən
Tutub qatdamaq istəyir.
Qəmə bükülü ürəyim
Sınıb çatdamaq istəyir.

Yolda, izdə oddananı,
Çöldə, düzdə oddananı,
Sazda, sözdə oddananı,
Od da oddamaq istəyir.

Dərd dərddən ağır gələndə,
Üzünə baxıb güləndə,
Adamı fağır görəndə,
Dərd də şaddanmaq istəyir.

1988

## SƏNİ MƏMLƏKƏTİN İSTƏMİRDİMİ...

*Məmləkətim,*
*Məmləkətim,*
*Məmləkətim.*
*N.Hikmət*

"Yok-yok məmləkəti atıbdı Nazim"
Yanıqlı-yanıqlı bir türk deyirdi.
Sən bir taleyə bax, böyük şairim,
Səni məmləkətin istəmirdimi.

Səni məmləkətin istəmirdimi,
Özü öz dərdini qanırdı ancaq.
Yanıqlı-yanıqlı bir türk deyirdi
Yanıqlı sözündən yanırdı ancaq.

Alnıyın cızığı, saçıyın ağı
Ölümnən sonrakı taleyin kimi.
Hələ gözlərindən böyük dərd axır,
Böyük insanlıqdan dərd əskikdimi?!

Həsrət kipriyində yaş damcısıydı,
Dözümün, döyülmüş dəmir kimiydi.
Nimdaş ürəyinin infarktı onda
İstambul, Ankara, İzmir kimiydi.

Necə budağından qoparar indi
Başına qaxılan bu töhmət səni?
Nazim, məmləkətin şöhrəti idin, -
Dağa-daşa saldı bu şöhrət səni.

1988

## İÇİNDƏ DÜŞMƏN OLAN ADAM

Ağlamağa heyi qalmaz
Kişidən tufan keçəndə.
Qurd tək didib tükədərmiş
Dərd də adamı içinnən.

Bu da belə yaxşılıqdı,
Gözü töküb, qaş qayıra
İçində düşmən olanın
Çölü yetərmi hayına?!

1988

***

Kövrəkdimi, ya sərtdimi, bilmirəm,
İncikdimi, ya pərtdimi, bilmirəm,
Bir arzumu cücərtdimi, bilmirəm,
Yüz arzumu heç eləyən dünyadı.

At işləməz ağır yollar yorandı,
İşığı gur, boranı da borandı,
Bir də gördün mərd qolunu burandı,
Haqlı-haqsız güc eləyən dünyadı.

Ağbirçəyin birçəyinnən çəkinməz,
Cavanınnan, göyçəyinnən çəkinməz,
Təptəzə tər çiçəyinnən çəkinməz,
Vaxtlı-vaxtsız köç eləyən dünyadı.

1988

## STALİNİN XOFU

*Stalinə haqq qazandıranlar bu gün də çox-çoxdu. Mənə elə gəlir ki, bu zehinlərdə yurd salmış xofdan başqa bir şey deyil*

Stalin öz xofunu
qəlyanına doldurub
acı tənbəki yerinə
şirin-şirin çəkirdi.
Qəlyandan çıxan xofun tüstüsünü
xalq öz ürəyinə çəkirdi.
Qəlyandan çıxan xofun  tüstüsü
Ürəkqarışıq xalqın içinə çəkilirdi.
Qəlyandan çıxan xofun tüstüsü
xalqın içinə çəkilə-çəkilə
xalqın içi suya çəkilirdi.
Xalqın gözündən keçə-keçə
Stalinin xofu
gəlib bizim kolxozun sədrinin
xofuna qarışırdı.
Bizim kolxozun sədrinin xofu
Kremlə çatıb
Stalinin xofuna hopurdu.
Stalinin xofu bütün ölkənin

Hər küncünə gedib çatırdı.
Hər küncdən  beləcə
xof-xofa qarışa-qarışa
Stalinin xofunu şişirdirdi.

…Bir dəfə mən də gördüm
Stalinin xofunu
bizim kolxozun sədrinin
əlindəki matrağın[1]
zəmi yolunda başıqarışıq
sünbül dənləyən bir uşağın
başıqarışıq
sağ yanağında açılanda.
Bir dəfə mən də gördüm Stalinin xofunu,
İki xof arasındaydı xalq
İki xof arasında xalqın içi
İkiqat suya çəkilirdi.
Xalqın içi ikiqat suya çəkilə-çəkilə
və birdən birinci nəfər çaşıb:
«Stalin» desəydi,
«Yoldaş Stalin» yerinə
və yaxud
«Yaşasın Stalin» yerinə
Birinci nəfər
ikincinin gözü önündə dara çəkilirdi.
Birinci nəfərlər dara çəkilə-çəkilə
ikinci, üçüncü, milyonuncu
nəfərlər
iki xof arasında qışqırırdılar:
«Yaşasın yoldaş Stalin!».

1988

[1]matrağ - mini qamçı, sapı cüyür ayağınnan hazırlanır.

## AĞIR YOLLAR YORĞUNUYAM

İçim dərdimnən gözənib
Gözümdə tufan gizlənib,
Ulusum, yurdum düzdənib,
Deyirsən ki, arxayınam.

Nə yorub bezdirəsidi,
Nə də ki, göz görəsidi,
Nə dərviş gəzdirəsidi,
Bir daşlaşmış barxanayam.

Qurtarmaz gümanım mənim,
Əl çəkməz yamanım mənim
Aman ver, amanım mənim,
Ağır yollar yorğunuyam.

1988

## BU DƏRDƏ TANRI NEYLƏSİN

Dizə salıb güc eləyir,
Beş eləyir, üç eləyir,
Köçümüznən köç eləyir,
Bu dərdə Tanrı neyləsin.

Qara damın hörgüsüdü,
Qara qulun hürküsüdü,
Qara günün bürküsüdü
Bu dərdə Tanrı neyləsin.

Neçə qat düyünnən keçir,
İçinnən, böyrünnən keçir,
Yarandığın günnən keçir,
Bu dərdə Tanrı neyləsin.

1989

## YUXULARDA YURD

Gedəmmirəm, gələmmirəm, ay Allah,
Nə ugrunda öləmmirəm, ay Allah,
Gennənsə də görəmmirəm, ay Allah,
Mən nə qədər yuxularda yurd görüm?!

Heç bilmirəm azmı, çoxmu günahın ,
Yoxsa paksan, yoxsa yoxmu günahın,
Olacaqlar olacaqmı günahın?
Qoca dünya, günahını ört, görüm.

Ayılmıram bu nə agır yuxudu,
Bu qarğışı ömrümə kim oxudu?
Bu fələyin atdığı yay oxudu,
Qaldır görüm, tuşla görüm, dart görüm.

Dərviş ruhlar yalquzaq tək ulayar,
Yollar məni öz başıma dolayar,
Dağlar gennən dinazını yollayar,
İnanmıram, bunnan ağır dərd görüm.

1989

***

Yox, sən dərd çəkən deyilsən
Sənin çəkdiyin dərd deyil.
İndi çoxları kef çəkir -
Çəkir, adına dərd deyir.

Sənin çəkdiyin dərd deyil,
Balıq çəkirsən dəryadan.
Dodağı çatlaq görürsən,
Su çəkirsən boz səhradan.

Yerli-yersiz yaxa yırtıb
Qışqırıb, haşa çəkirsən.
Hərrəyib yeddi arxanı
Yağlayıb başa çəkirsən.

1989

## “ÖLSÜN ƏLƏSGƏR TƏK QULLARIN...”

Kiridib gəlirəm, kimə nə var ki...
Küsüb omaxşıyan yurd həsrətimi -
Fərqli yaşayıram, eh, çoxlarından.
O didərgin ruhlar qayğı umurlar.
Mənim üç saatlıq yuxularımdan.
Gedib qovuşuram kövrəklərimə,
Gedib qarışıram küləklərimə...

Yurd ətri gətirəm, yurd gülü dərəm,
Yurd dərdi gətirəm uşaqlarıma.
Gedirəm, gedirəm söz oxutduram,
Dastan bağlatdıram aşıqlarıma.
Birləşib, gurlaşıb çay ola bilmir,
Sısqa bulaqdımı ahlar dünyada?!
Gördüm dərd yeridi-ocaq yerləri,
Gəzəri dərvişdi ruhlar dünyada.

Gedib görürəm:
İşləmir arılar, açılmır güllər,
Ələsgərin sazı kökdən düşübdü.
Tufarqanlı Abbas, başıma küllər,
Gördüm Xəstə Qasım xəstə düşübdü.

Tor gəlib gözünə Alı dədənin
Neçə can çürüyüb, tər sinə qalıb.
Nə Yaxşının qəbri qibləsindədi,
Nə Aşığın qəbri tərsinə qalıb.

Bir ağrı göyərir-ağrı canımda
Şeir dərddən doğur, incidən olur.
Dağ çayım, kövrəlləm, gəlib yanında
Məni nahaq yerdən incidən olur.

"Ölsün Ələsgər tək qulların", - dedin
Mən ölsün deyirəm: ürəyi donlar.
Ölsün arsız-arsız ağrımnan yeyib,
Dərdimnən geyinən buqələmunlar...

Yurd ətri gətirdim, yurd gülü dərdim,
Yurd dərdi payladım uşaqlarıma.
Gedib saz çaldırıb, söz oxutdurub,
Dastan bağlatdırdım aşıqlarıma.

1989

# BU NƏ KÖÇHAKÖÇDÜ,
# A TALIF OĞLU

Kimə çörək verib, kələk görübsən
Neçə diz qatdayıb, bilək gəribsən,
Hər qarış torpağa kürək veribsən
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Geyib ayağına dəmir çarığı,
Çatıb bir-birinə aranı-dağı
Axirət əyyamı, ixtiyar çağı
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Yaxşıdan keçirsən, pisdən keçirsən,
Keçilməz yolları, hirsnən keçirsən,
Altaydan addayıb, Qarsdan keçirsən,
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Nə əvvəlin bəlli, nə sonun bəlli,
Sürülü yaylaqlı, naxırlı, kəlli,
Zəmili, xırmanlı, sünbüllü, vəlli
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Bir yurd Canbaxçadı, bir yurddu Şıxlı,
Alnın düyünlüdü, yolun açıqmı
Zurna-balabanlı, toylu-aşıqlı,
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Comərd yaşayıbsan, mərd dolanıbsan,
Elə yurd deyibsən, yurd dolanıbsan.
Nədi, bu dünyanı dörd dolanıbsan,
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Gör necə bürüdü duman dağları,
Yaman dağlanıbdı şaman dağları,
Vallah əridəcək güman dağları,
Bu nə köçhaköçdü, a Talıf oğlu?

Bu nə köçhaköçdü,
Bu nə köçhaköç.
Bu nə köçhaköçdü, a Talıf oğlu?

1989

***

Qolum ocaq kösöyüdü,
Yanıq əlimi neyləyim,
Torpağım daşım daşınıb,
Qırıb belimi, neyləyim.

Darda bir küsülüm qalıb,
Ürəyim bükülü qalıb,
Odum keçib, külüm qalıb,
Soyuq külümü neyləyim.

Gözümün biri gülməmiş,
Gözümün biri ağlayar.
Qəribin göyü hönkürər,
Qəribin yeri ağlayar,
Qərib elimi neyləyim...

1989

## DƏRD DƏRDƏ BƏNZƏMƏZ

Dar ürəyə sığınmaram,
Şen yurd qoyub darda,bala
Əl uzatma sarı simə
Ağlayırsa pərdə,bala.

Bir itgin gümanım yanıb,
Yanıb, din-imanım yanıb
Neçə arzumanım yanıb,
Axşamda, səhərdə, bala.

Nə deyim aslan çaşanda,
Duru sular bulaşanda.
Namərdin börkü başında
Olan oldu mərdə, bala.

Çiynimdə bir yurd yükü var,
Nə mizan var, nə çəki var,
Bu dərdin dərin kökü var,
Dərd bənzəməz dərdə, bala.

1989

## DÜNYADA ƏN TƏNHA DƏRDİN ƏLİYLƏ...

İşim düz gətirmir, əllərim yalın…
Özümə dərd anı,qəm saatıyam.
Eynimə almıram, bu olan-qalan
Ömrümü üyüdən qum saatıyam.

Elə yeriyirəm, elə keçirəm,
Ayağım yollarda daş-kəsək bilmir.
Bir əlim ilana zəhər satammır,
Bir əlim pambıqla baş kəsə bilmir.

Minnət götürmürəm dünyada yaddan,
Torpaq şumlayıram, dərd götürürəm.
Vətən, torpağında eh, neçə adda,
Xarici markalı namərd görürəm.

Dərdlər də deyəsən çox sevir məni,
Onlara qardaşam, bax göz-görəsi.
İstər imtahana çək-çevir məni
Torpaq şirəsidi üzüm giləsi.

Hərəsi bir dərddi-ulduzlar, yanır
Qızıl şöhrət olmur tac, ürək üçün.
Mənim yan-yörəmdə infarkt fırlanır,
İsti ürək gəzir, cücərmək üçün.

Dağ kimi kişilər ölür biqəfil,
Nəsə yaxa cırır pisdən əcəl də.
Nə olsun dünyanın min oyunu var,
Padşah qızı alıb, bəzən keçəl də.

Eh... mənim işlərim uzanır elə,
Deyən, əzabımdan dünya qazanır.
Günləri, ayları verirəm yelə,
Ürəyim ağrıyır, canım qızınır.

Dəyməsin başıma nadan qapazı
Söyülüm, döyülüm mərdin əliylə.
Hər gecə döyülər şair qapısı -
Dünyada ən tənha dərdin əliylə.

İşim düz gətirmir, əllərim yalın
Özümə dərd anı, qəm saatıyam
Vecimə almıram, bu olan-qalan
Ömrümü üyüdən qum saatıyam.

1989

## ALLAH VERGİSİ

*"Sona bülbüllər", Qədirin səsi*

Oy, məni bu səsin qargışı tutub,
Dikələ bilmirəm, belim əyildi.
Yoxsa ki, bir qızın qargışı tutub,
İşim düz gətirmir iyirmi ildi.

Bülbül fəryadımı, şir qəzəbimi,
Can qurtara bilmir qəfəsdən, Allah!
De, durub çırpımmı özümü yerə,
Asımmı özümü bu səsdən, Allah?!

Kim qıyar canına, günah götürüb,
Kim qıyar canına öz xoşluguyla.
Bir yaşıl budaga pənah gətirib,
Dərdini oxuyur quş quşluguyla.

Yara işləyirsə, dərd hoylanıbsa,
Səsin nə günahı, allah bəndəsi?
Mənim dərdlərimlə bir boydadısa,
Bir buxundadısa,elə bilirsən,
Allah vergisidi Qədirin səsi.

Nə deyim, nə deyim, nə deyim indi
Bir verib, beş qırtıb, beş aparannar,
Mənim gözlərimi yaş aparanda,
Nə çoxdu oxuyub baş aparannar.

Agız dinazından,söz dinazından,
Sən özün hifz elə mərdləri, Tanrım!
Bir yurd daşı üstə tənha, kimsəsiz,
Oturub ağlayan bir kor qocanın
Allah vergisidi dərdləri, Tanrım.

1989

## AY USUF DAYI

*Saraclı Usuf aganın ruhuna oxunan şeir*

Ömür doganaqda ikən
Doganaqdan keçmir örkən,
Daha “Molleyvə”[1] göy ürgən
Burulmur, ay Usuf dayı.

Haqqın çəpəri kələkdən
ƏlƏdi, keçdik ələkdən,
Fələk pislik eləməkdən,
Yorulmur ay Usuf dayı.

Nə deyr sözün qərəzi,
Əyrinin, düzün qərəzi,
Qurulmur mizan-tərəzi,
Qurulmur, ay Usuf dayı.

Canbaxçanın baxtı yatıb,
Baxtsız yatıb, baxttı yatıb,
Sorulmur nə vaxtdı yatıb,
Sorulmur, ay Usuf dayı.

[1]Mollaeyyub - kəndimizin keçmiş adı

Yol itib arannan daga,
Daglar qalıb baxa-baxa
Ag sürülər göy yaylaga
Sürülmür, ay Usuf dayı.

Qəflə karvanlar boşalıb,
İti qılınclar korşalıb,
Gərilən simdi Borçalı,
Qırılmır, ay Usuf dayı.

Gedər-gəlməzdimi yollar?
Qurdnan qalıb yurdlar ular.
Elə bulanıb ki, sular,
Durulmur, ay Usuf dayı.

Xəyalım didərgin quşdu,
Başımda huşum dolaşdı,
Saraclısız da Saraclı,
Olurmu, ay Usuf dayı?

1990

## SIĞINARAM SAĞ OVCUMA

Üz görmüş üzlərdən yığıb,
Hər gün hövsələdən çıxıb,
Ürəyimi nar tək sıxıb
Sıxılıram sağ ovcuma

Daylaq yükünü tanımır,
Dönük kökünü tanımır.
Köhnə, kürkünü tanımır
Yığılıram sağ ovcuma.

Bir qara daşa dəymirəm,
Bir qəmli quşa qıymıram.
Döymürəm, döşə, döymürəm
Sığınıram sağ ovcuma.

1990

## DÜNYA UCUZUNA GEDİR

Ömür - bır baglı sandıqca
Qiymətdə qara fındıqca
Sagım, solum budandıqca
İçimdə uçunma gedir.

Mənımkı söz söyləməkdı,
Sözdən-sözə bəylənməkdı
Bu necə nəf eləməkdı?
Ziyanın içinnən gedir.

Keçmır kimsənın suçunnan
Qalmır öz köhnə köcünnən
Dünya elə bır ucunnan
Tutub ucuzuna gedir.

1991

## HEÇ KƏS ÖZ DƏRDİNİ GÖTÜRƏ BİLMİR

Heç kəs öz dərdini götürə bilmir,
Heç kəs öz dərdini, vallah dünyada
Hələ əlləriylə üzəngi basan,
Hələ ayaqları sallaq dünyada.

Mürgülü başlarla ayılmır bəşər,
Özünü alladır, başını qatır.
İnsan ipəkləşir yuxularında,
Bəlkə yuxularda tanrıya çatır.

Elə ki, elə ki, qarnına yeyir,
Elə ki, elə ki, əyninə geyir
Dönüb başqalaşır, özünün olmur,
Dönüb qaşqalaşır, özünün olmur.

Eldən çıxannar da
çıxmaz yolundan
Yol tutar qolunnan yolunu azsa.
Dünya peyğəmbərlər dünyası olar
Oturub hər şair özünü yazsa.

Dünyanı pay kimi dartıb özünə
Bir bəxti kəm oğlu özünü dartır.
Özünə bənzəyir hər kəs qəbirdə,
Ölülər qəbirdə özünü yatır.

Diriynən diridi qəbristanlıqlar...
Fikir çözələyər hüzür yerləri.
Allah, and yeridi qəbristanlıqlar
Ən təmiz yerlərdi məzar yerləri.

Hər kəs öz dərdini götürüb gedir,
Hər kəs öz dərdini, vallah dünyada
Hələ əlləriylə üzəngi basan,
Hələ ayaqları sallaq dünyada.

1990

## YAZNAN, QIŞIN ARASINDA

Yuxarı baxıram bığdı,
Bu da saqqaldı, baxıram.
Ürək uşaq ürəyidi,
Saç-saqqal çaldı, baxıram,
Qalmışam məlul-mükəddər,
Eşqnən yaşın arasında.

Ömür ki, bir asan ovdu,
Bəxt ovçudu, insan ovdu,
Tale bizi qovhaqovdu-
Yaznan qışın arasında.

Vaxt nə deyir, nə gözlənir,
Baxt nə deyir, kim izlənir.
Bilmirsən ölüm gizlənir
Göznən qaşın arasında.

Aşıq saznan coşa gərək,
Nər kimi yetişə gərək,
Söz çıxmamış bişə gərək
Dilnən dişin arasında.

1990

## DÜNYANIN DÜZ VAXTI...

Onda ki, dünyanın düz vaxtı idi...
Bütün dəyirmanlar dən üyüdürdü.
Varlıya-hallıya gen üyüdürdü,
Kasıba-kəntdiyə kəm üyüdürdü.

Dünyanı qanına söz çalxayırdı,
Yoxlayan bir yeri yüz yoxlayırdı.
Atlazın yerinə bez oxuyurdu,
Özü də dünyanın düz vaxtı idi.

Maya ki, qudurub qazanc yeyirdi,
Pendir istəmirdi daha dərini,
Kişi məşuqəyə tərif deyirdi,
Arvad aldadırdı halal ərini,
Özü də dünyanın düz vaxtı idi.

Dünya öz başına qalmışdı, vallah
Bizim bir kəndçinin beş uşağı tək.
Şəhərdə qalırdı kənd bəyənməyən
Yurdlar qışqırırdı döş uşağı tək.

Təkcə yurd canlılar, torpaq canlılar
Oğul-qız canlılar qarışqa idi.
Lap yekə baş idi vəzifəlilər

Onda da institut müəllimlərinin
Çoxusu nədənsə çox qaşqa idi.

Rüşvət alırdılar, rüşvət alanlar.
Baş kəsən olmuşdu rüşvət verənlər
Allahın işinə qarışan vardı.
Vardı əzrayıla rüsxət verənlər.
Hər şeyin, hər şeyin öz vaxtı idi.
Onda ki, dünyanın düz vaxtı idi.

1990

## MƏN KEFİ DÜZ ADAM DEYİLƏM

Bir gün bu dərdlərə əyilləm, qardaş,
Əyilləm, nə zaman, hələ bilmirəm.
Mən kefi düz adam deyiləm, qardaş,
Mən kefi düz adam ola bilmirəm.

Otağım olanda ocağım olmur.
Ocağım yananda, damır tavanım.
Vallah, heç ağlıma gəlmir dünyada
Mən qəmə gecikim, dərdə yubanım.

Məlhəm tapılmayır açıq yarama,
Elə görürəm ki, yanır el-oymaq.
Harama yaraşır, mənim harama
Harama yaraşır kefi düz olmaq?!

Mayısda şaxtalar vurur biqəfil
Qışdan çıxardığım ləçəklərimi.
Yoxsa tapşırımmı suyun səmtinə,
Küləyin səmtinə göyçəklərimi.

Gözümü açmışam hey mərdi döyür
Gəlmir bir ağıla, bir dilə dünya.
Elə qayğı doğur, elə dərd doğur,
Elə ağrı doğur hamilə dünya.

Bir küsülü gözəl vəsf olunmayıb.
Sözə də sığmayıb boyda-biçimdə.
Ay Allah, sözünü deyə bilməyib,
Bir nəsil qocalıb mənim içimdə.

Mən kefi düz adam ola bilmirəm.
Mən kefi düz adam deyiləm, dedim.
Mən özümdən ayrı qala bilmirəm,
Mən kefi düz adam deyiləm, gedin.

1991

***

Bir tərəfə yan çəkəndi,
Qan alandı, qan çəkəndi.
Verdiyinə can çəkəndi,
Aldığından doymaz dünya.

Çirkininə, göyçəyinə,
Boz otuna, çiçəyinə,
Yaratdığı böcəyinə,
Qurd-quşuna dəyməz dünya.

1991

## MƏN SÖZÜ HƏRDƏN DEYİRƏM

Mənə qalan gecələrdi,
Biri bir sirli nağıldı.
Durub göz-gözə qalıram-
Elə ki, yuxum dağıldı.

Günlərim keçir, tükənir,
Çoxu da ürəkli olmur.
İçimdə dərd bəsləyirəm,
Dərd də ki, böyrəkli olmur.

Yolun nə vecinə yorğun,
Aman bilmir, and istəmir.
İşim hələ tərs gətirir,
Tərs də ki avand istəmir.

Oturub zümzümə deməz
Dərdli ki ağı yerinə.
İndi kələkmi öyrədək
Uşağa nağıl yerinə?!

Tənhalar, təklər nə çəkir
Ağrıdan, dərddən deyirəm.
Heç vaxt qalxan eləmirəm
Mən sözü hərdən deyirəm.

1991

## ŞAMAXI QIZLARI ŞAİR SEVƏNDİ

*M.Ə.Sabirin ruhuna*

Dünən bir məşədi bogaz yırtırdı,
Bogaz yırtırdı ki, qəzet almayın,
Qəzetdə, kitabda çoxlu yalan var.
Şairə, şeirə heç inanmayın,
Şairdən millətə ancaq ziyan var.
Çoxda ki, qızların şair sevəndi,
Şamaxı, şairə allergiyan var.

Bir cansız böcəyə can isindirir,
Sıgınır bir çimdik ota, əncərə
Dünya Şamaxıya yığışa bilir,
Sabir Şamaxıya sığışa bilmir.

Tacirlər, karvanlar, Şamdan qayıdır,
Nəsimi soyulur, gedib Hələbdə
Şamaxı qurtarmır şair əlindən,
Şairlər qurtarmır şərdən, kələkdən.

Bir dəli maraga gedib ölən var,
Fərqi nə, qarşıda dumandı, çəndi.
Vallah, yuxusunda şair görən var,
Şamaxı qızları şair sevəndi.

1992

***

Bir yalquzaq təki sınan, təklənən,
Hövsələm, mən səni saxlayammıram,
Yaşaya bilmirəm yorğun ürəknən,
Bu çıxıq gözlərnən aglayammıram.

Kimdədi dolaşıq ucu kələfin,
Hardadı, tapmaga ümid yox az-maz.
Gedib o dünyanı görüb gələnin,
Daha bu dünyada qorxusu olmaz.

Bu qədər təzadlar, bu qeylü-qallar,
Allahın özünü başdan çıxarır.
Mənim bu qılıqsız, köntöy inadım,
bir parça çörəyi daşdan çıxarır.

Sən uzaq ulduzum, yovuş mənimlə
Daha kimsənəyə yovuşammıram,
Sən cırnıq taleyim, barış mənimlə
Yox, daha səninlə barışammıram.

Bu sinəm bir qara arxac yeridi,
Ürəyim qəfildən atdana bilər,
Nə yalvara bilər kösöv əllərim,
Nə sınıq dizlərim, qatdana bilər.

Kimdədi dolaşıq ucu kələfin,
Hardadı, tapmaga ümid yox az-maz.
Gedib o dünyanı görüb gələnin,
Daha bu dünyada qorxusu olmaz.

1992

## ELƏ ÜMİDİMİ İTİRMİŞƏM Kİ...

*Bir şairin narahatlığınnan*

Dünya sığalına yatmır, yatmasın,
İlham sığalına yatdı, qəm yemə!
“Elə ümidimi itirmişəm ki...”
İtirmiş olsan da, sən allah, demə.

Sən, sözü soyunmuş söz vulkanısan,
Şirəsi sıxılmış narsan, qəm yemə!
Çox mənəm deyənlər, yoxdu - sevin ki,
Sən, yüz il sonra da varsan, qəm yemə.

Sıxılıb eləmə, başına dönüm,
Əgər sözlərinə baxmırsa dünya.
Dünya tumar sevən bir pişikdisə...
Nə qəmlərə əyil, nə dərdə bac ver,
Əgər dünya sənnən öcəşikdisə...

“Elə ümidimi itirmişəm ki...”
İçimdə göynədi söz gizli-gizli.
Bəlkə bu ümidlər qıran dünyada
Ümidi şairdi bir ümidsizin.

1992

## KİŞİ

*Tarixçi alim, el ağsaqqalı*
*İsrafil Məmmədova ehtiramla*

Bir üzü istidi boyat dərdlərin
Bir üzü göyərib o "yad" dərdlərin
Nədi, qalaq-qalaq, qat-qat dərdlərin,
Arı pətəyi tək göynəyən kişi.

Hanı, bulud-bulud dolan göylərin
Qurdlarmı qoruyur köhnə köyləri?
Qapısız-bacasız görüb öyləri,
Ruhu o yurdlarda oynayan kişi.

Vaxt-vaxtdan addıyar, iş-işdən keçər
Yüz yazdan addıyar, yüz qışdan keçər,
Qarşıda bir qanlı döyüşdən keçər
Qanı damarında qaynayan kişi.

1998

## ƏLLİ YAŞIMA

Hardan yol gəlirsən, hardan bilinmir,
Qəbrin düşəcəyi yer bəllidimi?!
Gəlib əlli yaşa çatdın birtəhər,
Çatdıgın əlli də, bir əllidimi.

1998

***

Tanrım, bu necə ömürdü?
Yaşadım kirayə kimi,
Yürüdüm cəsədim üstən
Çatım bir ürəyə kimi.

Ölümsə son ucu ömrün,
Çoxdan keçdim bu son ucu.
Bir yoldu tutub gəlirəm,
Uzun, əzablı, yorucu.

1998

## AYRILIQLAR TANRILIQDI

Gözünnən aydın görürəm,
Qəmin-göyərən yerindi.
Deməsən də mən bilirəm,
Dərdin-dərdinnən yeyindi.

Nə buludsan, nə yağırsan
Nə axan selnən axırsan,
De, niyə belə baxırsan,
Bu uçuq - sənin evindi.

Sevdalar bir yara yeri,
Yarı göyün, yarı yerin,
Ürəyimiz ura yeri,
Əllərimiz kösöv indi.

Bu nə sondu, ayrılıqdı,
Ayrılıqlar tanrılıqdı,
İçim şüşədi, sınıqdı
Məni qarğa, ya söy indi...

2000

***

Gündə sərdənnər sürülər,
Anasız quzular mələr
Köç qalxar, yurdu görünər
Sinəm bir arxac yeridi.

Bitdim yolların boyunca
Getdin bir xəyal olunca
Könlüm köç eylər dalınca
Yönüm mövlanə piridi.

Hər sevdada ayrılıq var,
Ayrılıqda sarılıq var,
Bu çəkdiyim ayrılıqlar
Mənnən qəribdi, diridi.

2000

***

Yenə o dağlar başında
Lalə, nərgiz bitərmi ola?
Mənim həsrətlərim ilə,
Ömrüm başa yetərmi ola?

Şimşəkləri, gürşadları,
Qılınc yerinə qurşadım.
Sevdim, köhnəldim, korşaldım,
Sevdalar bir xətərmi ola?

2000

***

İti sellərnən gurlaşan,
Dəli yellərnən kürləşən,
Qat-qat dərdlərnən dilləşən,
Agrılarnan bışən canım.

Yuvası uçuq quşlarnan
Göz üstə çatıq qaşlarnan,
İtib qarışıq başlarnan,
Qurdlarnan ulaşan canım.

Öz-özünə yoxuş olub,
Əzablardan bihuş olub,
Gecələri bayquş olub,
Yurdları dolaşan canım.

2000

## DƏRBƏND

Uzaqdı özümüz qədər
Yaxın da Dərbənddi bizə.
«Könül Qarabağdan keçər.»
Dərbənd də bir dərddi bizə.

Gözümüz odu yandırar,
Ağzımız dadı yandırar,
Çölümüz yadı yandırar,
İçimiz qürbətdi bizə.

Gəldik, yeridik, yürüdük,
Gəldik özümüzü gördük.
Yarı ağrı, yarı dərdik
Dərd olan şöhrətdi bizə.

2001

***

Dərd tək gizlincə gəlirsən
Gəlirsən dəmin yerinə.
Bəxtdi, kəsib paylayıram
Yüz bəxti kəmin yerinə.

Ya ömrə, ya yaşa köçsən
Ya gözə, ya qaşa köçsən
Ürəyimdə başa keçsən
Buyur, keç qəmin yerinə.

İnsan olmağımnan bezdim
Tanrım, yellərinnən gəzdir,
Atıb sularında üzdür
Bir taxta gəmin yerinə.

Öldüyüm günü bilirəm,
Ölümün üstə gəlirəm,
Yahu, əcəlsiz ölürəm
Görəsən kimin yerinə.

2001

***

Nə canı cannan ayırır,
Nə də ki, cana doyurur,
Külək qalxır, qar soyurur,
Gur yağışlar yağır sənnən.

Dərd beləcə sözdümü ki,
Birdimi ki, yüzdümü ki,
Təkcə bir cüt gözdümü ki,
Əzrayıldı, baxır sənnən.

Bir mövlamın haqq işiyəm,
Yerin, göyün gərdişiyəm.
Mən könüllər dərvişiyəm
Gedəsiyəm axır sənnən.

2001

***

Butalıdı yar yuxusu
Yastığın ənbər qoxusu
Mənim həsrətim oxusun,
Sənin hicranın var olsun.

Buludlar uddu tüstümü,
Yağışlar aldı üstümü,
Gəlsə də əcəlim kimi,
Gəlsin, o anın var olsun.

Olacaqlar önə gəlsin,
Gələcəklər yenə gəlsin,
Yüz qanmazın dinə gəlsin,
Bircə qananın var olsun.

2001

## MƏN YENƏ SƏNİ SEVİRƏM

Həsrətin yaşıdı gülən,
Ömrümün qışıdı gələn,
Kimin qarğışıdı görən,
Mən yenə səni sevirəm.

Saçımda dəni sevmirsən,
Gozümdə çəni sevmirsən,
Sən yenə məni sevmirsən
Mən yenə səni sevirəm.

Kimə varsan, kimə yoxsan,
Nə qədər sevgisən, haqsan.
Nə qədər məndən uzaqsan
O qədər səni sevirəm,
Mən yenə səni sevirəm.

2002

***

*Hər gün eyni qiyafədə, eyni donda*
*gördüyümüz iş yoldaşımız Akif Səmədə*

Köhnə yurdlara bənzəyir,
Dag aşır, düzü gəzdirir.
Çölündə tufanlar gəzir,
İçində sözü gəzdirir.

Yosma kişidi yapagı
Can bilir ana torpağı,
Qaragüldəndi papağı,
Başında quzu gəzdirir.

Dağlara sarıdı yönü
Bir yol tutub, yoxdu sonu.
Ürək gəzdirmir, ha bunu
Ürəyini özü gəzdirir.

Birimiz deyirik çəkmə,
Birimiz deyirik içmə,
Orda durma, burdan keçmə
Dalınca bizi gəzdirir.

Hər gün axtarır neçəsi,
Dördcə balası, qönçəsi,
Güldü, ləçəkdi İncəsi,
Bakıda tozu gəzdirir.

Heç vaxt, heç zaman nədi,
Əsirgərməz al qan nədi,
Fərqinə varmaz can nədi,
Candı da, yüzü gəzdirir.

2002

***

Ağrı təlaşdı çəkdiyin,
Deyirsən necə, bilmirəm
Sən elə keçə bilmirsən,
Mən belə keçə bilmirəm,

Hər gələn yaz da qismətdi
Pay bir də, yüz də qismətdi,
Beş arşın bez də qismətdi,
Sovqatdı seçə bilmirəm.

Sevgidi, dərddi, nahaqdı,
Nahaq da özü bir haqdı,
Dərddisə üzü boyaqdı,
Nədisə, içi, bilmirəm.

2002

## ŞAİR KƏLƏNTƏR KƏLƏNTƏRLİYƏ

Qəmnən dogulacaq şairlər hələ,
Nə qədər dünya var, pərti olacaq.
Bəlkə də dünyada sonuncu şair,
Dünyanın sonuncu dərdi olacaq.

Bilmirsən nə qədər möhnəti olur,
Heç kimə, heç nəyə minnəti olmur.
Şairlər hər yerdə millətin olur.
Şairin heç yerdə milləti olmur.

2002

## BU TALE DEDİYİN..

Bu tale dediyin nədi,
Bir əlcə varaqdı, yoxsa?!
Bir üzü qara yazılı,
O bir üzü ağdı, yoxsa?!

Gedən yollar uzaqdımı,
Gələn günlər sazaqdımı,
Mənimki yaşamaqdımı,
Adicə maraqdı, yoxsa?!

Ömür də bir ömür deyil,
Səbir də ki, dəmir deyil,
Son yerimiz qəbir deyil
Bir qızıl otaqdı, yoxsa?!

İyun, 2002

***

Gəzirsən təkcə, tənhaca,
Bütün hamılardan uca
Baxışım üstünnən uçar-
Bürüncəyin, şalın olsun.

Neçə dildə adın hallanır
Arxanca kölgələr sallanır.
Gülürsən, yanağın allanır
O allanan xalın olsun.

Şalı çalıb, alı geynirsən,
Gözəlsən, haqqı öynürsən,
Bilmirəm, gecələr neynirsən?
Neynirsən, halalın olsun.

Bilgəh, iyun 2002

## SİRR

*Atillaya*

Bir sirr gəlir içimiznən
Kökdə kökümüznən gəlir.
Yerdə suyumuznan axır,
Göydə göyümüznən gəlir.

Sürür südnən, sümüknən,
Çərtir qannan, iliknən,
Yol gəlir elnən, elliknən
Gələn, hamımıznan gəlir.

Açılmır neçə qat söznən,
Görünmür ikicə göznən,
Ölən ölür ölümüznən
Qalan dirimiznən gəlir.

Nədisə şirin duyğudu,
Pirrər yozduğu yuxudu,
Sirr olan sirrər oxunmur-
Biznən gedir, siznən gəlir.

30.12.2002.

## AKİF SƏMƏDƏ AĞI

“Dünya duracaq yerdimi”
Duracaq yerlər hürrdümü,
Hələ də sirrlər sirdimi
Sirdimi, ay Akif Səməd.

Varmı bir əhvalın soran
Salam verib, əleyk alan
Qohum-qonşu, yanın-yörən
Pirdimi, ay Akif Səməd.

Kimi oddu, kimi tüstü
Kimdi sınıq, kimdi üstün
Torpağın altıynan, üstü
Birdimi, ay Akif Səməd.

Titrərmi bir yaşıl yarpaq,
Axarmı çay, coşarmı irmaq,
Gedənlər baş qoyan torpaq
Gördümü, ay Akif Səməd.

Ucanın ağ olsun üzü
“Bilməyənlər bilsin bizi”
Orda da fələyin gözü
Kordumu, ay Akif Səməd.

Ya gündüzdü, ya gecədi.
Kim haqqdı, haqqlar ucadı,
Bir arşın qəbrin necədi
Dardımı, ay Akif Səməd.

Ürək nədi, bel bağlayam
Ya dostlara yer saxlayam,
Ya öz dərdimi ağlayam
Dərdimi, ay Akif Səməd.

2005.

***

Nə qədər ki, ürəklərdə daşlar var
Gözümüzdən töküləsi yaşlar var
Aşkardan da o tərəfdə aşkar var,
Min gizlin var, hər aşkarın içində.

Görən varmı, Nuhdan qalsın ölməsin,
Qəvi tale bir kimsəyə gülməsin.
Bilən bilsin, bilməyənlər bilməsin
Oturubdu pir, aşkarın içində.

Günnən-günə yol azdırdı bələdim
Yaxşı nədi, yaman nədi, bilmədim
Ömrü-günü xəlbirlədim, ələdim
Məəttəl qaldım bir aşkarın içində.

2005

## YAZI

*Yazı - haqq təala ilə öz arandakı məsafəni,*
*vaxtı görə bilməkdi*

Dünya min ilki dünyadı
Elə, bildirki dünyadı
Bir üzdə iki dünyadı
Yoxdandımı, haqdandımı.

İçimdə yollar yorulub,
Gözümdə göylər yumulub,
Qırılan haqdan qırılıb
Azdandımı, çoxdandımı.

Ağırı quşlar götürmür,
Qurunu yaşlar bitirmir,
Mənimki başdan gətirmir,
Bəxtdəndimi, vaxtdandımı.

2005

***

Haqsız qaldım, muzdsuz gəzdim
Əlim haqqa yetər eylə.
Axırda canımdan bezdim
Yadı mənnən betər eylə.

Yetim quzutək teyləndim,
Bəxtə, yığvala söyləndim
Gəldim, qapında əyləndim
Ya sat, ya da nökər eylə.

Gəlmişdim ki, haqqı bulum,
Ədəb görüm, ərkən bilim.
Gördüm min yol yeydi ölüm
Apar lap təzə-tər eylə.

2005

***

Hər adam dərdi tanımaz,
Dərd tanımaz hər adamı.
Dərdlər var ki, qəbirdə də
Gəlib yoxlayar adamı.

Ürəyimə düşən çatdar,
Içimi yüz yerdən oddar
Bir-birindən yeyik dərddər
Diri saxlayar adamı.

Bir gün məni də duyallar
Duyub şeytanı söyəllər
Elə belə də deyəllər:
- Bu ruhuymuş, qar adamı?

2006

***

Yağır üstümüzə bir kin yağışı
Çıxar ürəklərdən kini, ilahi.
Sən ki, günahları əhv eləyənsən
Sən ki, eşidənsən ünü, ilahi.

Bir yuvasız quşun ağladır məni,
Çölün çal qamışı ağladır məni,
Allahın Rəmişi ağladır məni,
Niyə ağladırsan, məni, ilahi?

Haraya baxırsan fənddi-feldi,
Ağıl güməşidi, səbr tükəndi
Bu qədər ahlar ki, göyə bülənddi
Axırda tutacaq səni, ilahi.

Yaxşını yamana yamaq elədin,
Yumub, yumalayıb yumaq elədin,
Nə canlar yaratdın, torpaq elədin
Nədi yaratdığın yeni, ilahi?

2006

## BU ÖLMÜŞ ADAM

Ölmüş adamların ölmür çoxusu…
Ölmüş adamların yuxusu ölmür.
Ölmüş adamların Tanrıdan özgə
Heç kimnən, heç nədən qorxusu olmur.

Düz otuz beş ildi ölüb bu adam
Düz otuz beş ildi yuxuna gəlir.
Qorxur ki, incidə, qorxuda səni
Yuxuna qorxuna-qorxuna gəlir.

Qısmətdimi nədi, bəxtdimi nədi
Düz otuz beş ildi ruhdu bu adam.
Bir qədir biləni yoxdumu nədi,
Tək sənin dilində ahdı, bu adam.

Səbri göynəməsin, səbri neynəsin
Dağların, daşların səbri çoxdusa.
Qəbri ağlamasın, qəbri neynəsin
Düz otuz beş ildi ölən adamın
Gəlib ağlamağa qəbri yoxdusa.

Bu ölmüş adamın sevgisi ölmür
Qapını, bacanı döyən də odu.
Səni yuxularda axtaran, tapan
Arabir gözünə dəyən də odu.

Düz otuz beş ildi ölüb bu adam

Düz otuz beş ildi yuxuna gəlir.
Qorxur ki, incidə, qorxuda səni
Yuxuna qorxuna-qorxuna gəlir!

2007

***

Yerin tanrının yanımı,
Belə ucadı bilmədim.
Istədim açım qapını
Halın necədi bilmədim.

Yeddi qat sirrər oyatdı
Yeddi dağ, bələn oynatdı,
Sözün içimi göynətdi
Könlün incədi bilmədim.

Çixmaqnan bitməz hər yoxuş
Bitməz, saqqalı agarmış
Bizdən öncə ölüm varmış
Ölüm öncədi bilmədim.

2007

***

Öz içimnən başladığım
Sona çatıb yürüş daha.
Butalamaz ayrılıqlar,
Kama yetməz görüş daha.

Öz-özünə kim qocalıb,
Daha əllərim qocalıb
Içimdə içim qocalıb
Gətirəmmir duruş daha.

Içibdi eşqin camını,
Dadıbdı dərdin tamını
Tanrının bu adamını
Göyüzünnən soruş, daha.

2007

***

Gedən süleymanlar, şahlar,
Dönən taxtdı, taxtdı.
Sənə güvəndiyim dağlar,
Sənə də gümanım yoxdu.

Gəldi də yaşımız çatdı,
Pisimiz, yaxşımız çatdı,
Insanı yaşadan baxtdı,
Qəhr edən də baxtdı, baxtdı.

Torpaq altda itəsiyik,
Haqdan bir də bitəsiyik,
Bir də çıxıb gedəsiyik
Desələr ki, vaxtdı, vaxtdı!

2007

## QORXU

Gedirsən yoluna çıxır,
Durursan qarşına gəlir,
Qorxudu, qorxduqlarındı -
Hamısı başına gəlir.

Dagına, daşına gələnlər,
Qurduna, quşuna gələnlər,
Sonda başına gələnlər,
Əzəldən duşuna[1] gəlir.

Azında çoxun qurtarır,
Gözündə yuxun qurtarır,
Elə ki,qorxun qurtarır,
Ölüm də xoşuna gəlir.

2007

[1]duş – yuxu

## TANRI

Gedən gedir, gələn gəlir
Yungul sənnən, agır sənnən.
Hər nə var sənnən başlayır
Əzəl sənnən, axır sənnən.

Xoş üzünə açır güllər
Ləhcənnən oxur bülbüllər,
Sənnən əsir əsən yellər
Axan sular axır sənnən.

Nələr sonaladım, seçdim
Odun gördüm, suyun içdim
Hər şeydən bıqdım da, keçdim
Keçəmmədim axır sənnən.

30.10.2008

***

Hər şeyi unutmaq olar
Uca Tanrının adına
Aldanıb qalmaq da olar
Bir ölümün umuduna.

Dünya kimdi əndirdiyin,
Kimdi köntöy dindirdiyin,
Kimdi yenə mindirdiyin
Bir dəlisov cin atına?

Sular dəyə-dəyə gedir,
Daşı döyə-döyə gedir,
Adam gizlənməyə gedir
Bəlkə də torpaq altına.

2008

***

Bir kimsə bilməz necəsən,
Xəbər yox halınnan sənin.
Yarandı küllü-kainat
Btir kəlmə olunnan sənin.

Biz kimik, heçik gedirik,
Zamannan keçib gedirik,
Beləcə köçüb gedirik,
Sağınnan, solunnan sənən.

Olanlar Mövlam, xoş oldu,
Mənim də peymanım doldu,
Tahir bir xatasız quldu,
Nə gələr qulunnan sənin

2008

## “HƏR AŞQIN SONUNDA GÖZ YAŞI VARDIR..”

*(şarkı)*

Nə itirdik, nə tapdıq bu dumanda
Bizim kimi neçə-neçə naşı var.
Beygümannar qalar ahda-amanda
Sevdaların gözü yoxdu, qaşı var.

Buludumuz narın-narın yağdı ki,
Şimşəyimiz parıl-parıl çaxdı ki,
Bəxtimizi cırnatdılar, çox da ki
Bəxtimizin yatan şahlıq quşu var.

Eh sənin də səsin gedər küyünnən
Yerin bəlkə qarışıqdı göyünnən
Nəyin qaldı, öyünəsən nəyinnən
Başımızın haqdan yağan daşı var.

Dünya nədi ağzındakı dadındı,
Necə gəldin, necə getdin, adındı.
Hər kişini öldürən bir qadındı
Hər sevdanın sonunda göz yaşı var!

24.02.2009.

***

Bədən ki, var, qan gölüdü
Ağrıdan, ofdan ayrılsa
Duman dağların gülüdü
Çəkilən ahdan ayrılsa.

Nədi yüz yol cannan əziz
Nə sağ, nə sol cannan əziz,
Lap sən də ol cannan əziz.
Can nədi, ruhdan ayrılsa...

Haqq üzünə varan qalar
Məhəmməddən Quran qalar
Halal gedər, haram qalar
İçimiz vəhdən ayrılsa.
12.11.09.

***

Ömründə ən uca yer
Ölümə yıxıldığın yerdi.
Ən çox özünə bənzəyən
Ən çox sıxıldığın yerdi.

İçin-içində qurduğun
Yorub-yortub yorulduğun
Son ümidi də qırdığın
Yanıb-yaxıldığın yerdi.

Öz-özünə darıldığın
Axıb-axıb durulduğun
Bəlkə bir gün var olduğun,
Bir gün yox olduğun yerdi.

25.11.10.

***

Göyün harasında durub
Yer-göy arası tanrıdı.
Hamımızdan hesab bulub
Sorğu sorası tanrıdı.

Yan-yana xalqlar düzülüb
Nizələr, oxlar düzülüb.
Sıraynan haqqlar düzülüb
Haqqın sırası tanrıdı.

Axan bilər, qanda nə var
Çıxan bilər, canda nə var
Ölümnən o yanda nə var
Ordan sonrası tanrıdı.

2010

## DƏRD

Ayrılıq elə dərd deyil
Ayrılıq ağrıdı, gülüm.
Ayrılıq can almasa da
Ayrılıq ağrıdır, gülüm.

Çeşid-çeşid dərdlər varsa
Gəlib də qəsdinə dursa
Sən allahın altında dur
Allahın üstündə dursun.

İçimdə dərdlər ağrıyır,
Gözümdə dərdlər səyriyir
Məni sizdən ayırırsa
Çəkdiyim dərdlər ayırır.

2010

## QÜRBƏT

Uzaqda yurd qoxusu var.
Neçə bələn, dağ ayırır.
Təzə qürbət qorxusu var.
Gözlərim qürbət səyriyir.

Yanır, yanır...
İçim qürbət havasına.
Yenə içimə çəkilləm,
Çıxıb göyümə çəkilləm
Yenə məni qınasalar.

Qat-qat qürbətlər görünür,
Durub göz-gözə qalalı.
Nə var ağrıdan anarı,
Nə var qürbətdən bəlalı.

Gəldi, bu da son, çatdı
Qürbət çıxmadı içimnən.
Keçdi karvannar da getdi
Tək mənmi qaldım köçümnən.?

2010

***

Canımızdan şirə çəkir
Əcəl dartıb gora çəkir
Bu yol bizi hara çəkir
Şah olub onda bilərsən.

Gedə-gedə heçə çıxır
Özəşikdi öcə çıxır.
Can boğazdan necə çıxır
Ah olub onda bilərsən.

Tək çəkilən, dərdə nə var,
Ta qalmağa yerdə nə var.
Bilməzsən göylərdə nə var
Ruh olub onda bilərsən.

2010

***

Enibdi tanrıdan, haqdan
Dərddi, yenə bizə gəlir.
Gedən aldanışa gedir,
Gələn elə duza gəlir.

Mayası qudurub nəfdən,
Kefcili bayılıb kefdən,
Azrayılla dörd tərəfdə
Adamlar üz-üzə gəlir.

Beləcə dörüb, törəyib
Qurdu qəmgin, quşu qərib.
Bizi yiyəsizmi görüb
Ölüm üstümüzə gəlir.

2010

***

Qaşımıznan göz arası
Olumuna, qalımına şükür.
Gecəynən gündüz arası
Gediminə, gəliminə şükür.

Bizi yenə div aparır,
Nağıllar gəlib aparır
Keflər alladıb aparır
Biz çəkən zülmünə şükür.

Bir az çalpaşıq veribsən,
Suynan, işıqnan veribsən
Dəryadan bir qaşıq veribsən
Bir qaşıq elminə şükür.

Taxt yazdığın taxtsız olmur
Baxt yazdığın baxtsız olmur.
Ölüm heç vaxt vaxtsız olmur,
Vaxtlı-vaxtsız ölümünə şükür.

2010

***

Marığa yata-yata gəlib
Adam sata-sata gəlib
Yannan tuta-tuta gəlib
Yannarın yançaq adamı.

Heç bilməzsən nə karədi
Aladı, buladı, kərədi,
Özünnən də yekə heyvərədi
Su yerin sucaq adamı.

Hər yerdə hörmət saxlayıb
Erməniynən ülfət saxlayıb
Baş kəsib, arvad saxlayıb
Xalqın bu "qoçaq" adamı.

Yad toxumdu gəlib düşüb
Artıb, mərələyib, şişib
Hündür yerlərdə əyləşib
Dünyanın alçaq adamı.

2011

## GİLEYLİ GECƏ

*Telefonun zənginə atıldım. Bərdədən tələbə dostum, şair Telman Hüseynov zəng eləmişdi. Bu gecə vaxtı xeyir ola...*

Gecənin düz gırt yarısı idi
Sanki göylər, yerlər qarışıq idi.
Hər yan atəşkəsdi, barışıq idi...
Zənginə atıldım yuxu içinnən
Bəlkə də bir gizli uyğu içinnən.

Zənginə atıldım hövləng, yuxulu
Bir ilan gülləyə atılan kimi
Yarı səksəkəli, yarı qorxulu
Kor ilan gülləyə atılan kimi

Səsinnən qabaqda gəldi gileyin
Əllərim, deyirsən,çatmır neyləyim?
Nolar zəng eləyib, bir hal tutanda.
Ömür ortağını itirən kişi
Dedin təklənərmiş unudulanda.

Nə var bu dünyada hər şey yazıdı
Gileyin bilirəm dost dinazıdı
Niyə bircə yol da zəng eləmirəm,
Bəlkə telefonda şeir oxuyub,
Səni gecə-gündüz dəng eləmirəm.

“Yoxsa ürəyində mən yoxam”, - dedin.
Ay dost, ürəyimdə kim qalıbdı ki...
Dostlar unudulub, sevgilər ölüb
İçim yurdlar kimi boşalıbdı ki...

Elə o başdan da qansızınıydı -
Dünya düz gəlməyən hesab kimidi.
Bu ürək içimə qan sızır indi
Dibinnən deşilmiş bir qab kimidi.

Deyirsən: odu... ey, Müslüm də getdi -
Nə qədər umu da, küsü də getdi.
Biz də gedəsiyik, kim qalasıdı.
Yoxsa, ürəyimiz buz qalasıdı?..
Biz də gedəsiyik de nə qalıbdı
Bir də ki, ömrümüz duz dağı kimi.
İşlənə-işlənə lap azalıbdı.

İçimiz yatağan vulkandı, susub
Dərdlər mürgülüdü, gileylər ayıq
Biz ki, özümüzü lap sona kimi
Dumduru, dipdiri saxlamalıydıq.

Noolsun, özümü gözümnən salıb
Min qılıqnan yola verdiyim şəkər.
Kimə nə özümü-özümnən alıb
Bu qılığa yatmaz, heyvərə şəhər.

Hansı qatındayam, bilmədim göyün
Deyəsən, bu gecə yer-göy qarışıb
Bu gecə zənginlə gəldi gileyin
Telman, bu gecəyə giley yaraşır.

May, 2012

## MÖVLUD SÜLEYMANLIYA

Qələm də kotan kimidi
İşləyə-işləyə dirənər bərkə.
Tanrının səsi eşidilmir,
Şairlərin səsi eşidilə bəlkə.

Nə fərqi, səs elə - səsdi
Ruh geyib, ruh içib gəlirsə.
Bir şair səsi də bəsdi,
Tanrıdan keçib gəlirsə.

İndi balıqlar kor kimidi
Axar-axar sular lillənib.
Haşa bərəkətinnən,
Haşa hikmətinnən,
Söz də zibillənib.

Söz adına sümsük artıb
Elə sözdü unudulan da.
Qabağına sümük atılıb
Məddahdı -
Beş əlli tutulan da.

Birdən yüz kərə yüz çıxarıb,
Matahı tez çıxarannar.
Yerin təkinnən,
torpağın bərkinnən
yoxsa söz çıxaracaq
Vaxt-bivaxt göz çıxarannar.

Bulanıq sular durulmayınca
Balıqlar, yosunlar dirilməyəcək.
Balıqlar yosunlar dirilməyincə
Bulanıq sular durulmayacaq.

Nə fərqi səs-elə səsdi
Nahaqqı yenib gəlirsə.
Dünyaya bir şair də bəsdi
Tanrıdan enib gəlirsə.

May 2012

## QARA BUDUN

Getdikcə bitib tükənməz
Çölləri yovşan qoxurdu.
Tanrının altı boyu
düzləri oyum-oyum
Getdikcə adı idi.
Adı Qara Budun idi.
Qurşaq tutdu, diz gərdi,
Getdikcə göyün altınca.
Çünki xaqannı, xaqanatdıydı,
Qılıncı göydən enmişdi,
Atı yel qanaddıydı.
Başda gedəni
Göydə Göytanrıya güvənərdi
Yerdə Qara Buduna.
Qələbələr yazılırdı
Atının, qılıncının adına.
Belə bir xalq idi

Dağları, güvənc bilərdi,
Çomağı, sapandı öyəc.
Bütöv bir əxlaq idi.
Atına eşşək deyənmi vardı,
Dəvənə köşək deyənmi,
Adına şəkk tutanmı,
Qara Budun. [1]
Boyunnular boyun əydi
Başdılar baş endirdi.
Elə ki, dişi düşmən
Qabağına çıxdı,
göz-qaş endirdi.
Sonra suyuldun su kimi
Oyuldun quyu kimi.
Sonra çox yellər əsdi...
Sonra çox sular axdı...
Qara camaat oldun
Ölə-ölə yaşadın,
Yaşaya-yaşaya öldün.
“Qara” bir çirkab kimi
atıldı üstünə,
qarışdı tüstünə,
göyünə çəkildi,
yerinə çökdü.
Üzünə, izinə çıxdı
beləcə günahlar dizinə çıxdı

[1] Qara Budun - Orxon yazılarında Böyük xalq

Qara kütlə olanın
Alimi sarsaq,
Şairi qurumsaq olar.
Göydən quşu endirən
Qara xallı köpəyi sümsük,
Canavar ağızlı atı oğursaq olar.
uşağı boynu bükük.
Qadını sürtük,
kişisi düşük yaşar.

Tanrıdan aşağı
başımızdan yuxarı
dünya səsnən doludu
Ama gözüqıpığın səsi olmur.
Ahı-vayı çox olsa da
Qara kütlənin
Qələbəsi olmur.

2012, noyabr.

Ağrı ağrının üstünnən
Dartıb əlimi götürür.
Biləndə nədi qəsdində
Adam ölümü götürür.

Yollar yol gəlmir köyünnən,
Ruhlar perikib öyünnən.
Allah çəkilir göyünnən
Kişi ki, zülmü götürür.

Yer-göy dinşəmir səsini,
Püskürür kor hikkəsini,
Fələk də süpürgəsini
Çalıb külümü götürür.

May, 2013

## SƏNİN BU ŞƏHƏRDƏ NƏ ÖLÜMÜN VAR

Sənin bu şəhərdə nə ölümün var?
Güdük təpələrə dağ deyəmmirsən
Payını kəsirlər «yox» deyəmmirsən
Nədən ki, qaraya-ağ deyəmmirsən.

Ağac kəsməyin yox, yaş kəsməyin yox
Baş nədi? Pambıqnan baş kəsməyin yox
Beton qıramağın yox, daş kəsməyin yox
Daha bu şəhərdə nə itin azıb?

Gedib sığınmağa bir kənd yaxşıdı
Səyirtməyə axsaq çal at yaxşıdı.
Vallah, çox dostlardan kor it yaxşıdı
Daha bu şəhərdə nə itin azıb?

Güman da qalmayıb ocaq çatmağa
Daha nə qalıbdı, atam, satmağa?!
Gücün də çatmayır adam satmağa
Daha bu şəhərdə nə itin azıb?

Boyalı üzlərin boyatı çıxıb,
Gördüyün torpağın bir qatı çıxıb,
Quraq içimizdən bayatı-çıxıb
Daha bu şəhərdə nə ölümün var?

Sən düşüb gəlmisən sözün dalınca
Çox gözlər qurudub söz - söz olunca
Bilirsən ki, çapar aclar qılınca
Sənin bu şəhərdə nə ölümün var?

Heç güllə də oymaz, yalan söz kimi
Ürəklər soyuyub, gözlər buz kimi
Balalar da qalıb özümüz kimi
Daha bu şəhərdə nə itin azıb?

Kəfən boyumuza biçilibmi ki
Dərd tanrıdan gəlib, seçilibmi ki
Tabımız, gücümüz ölçılıbmü ki
Sənin bu şəhərdə nə ölümün var?

Deyirsən bəxtini, bəxtlilər ovdu
Bağın dağıdıldı, bostanın sovdu
Səni ki, evinnən erməni qovdu
Daha bu şəhərdə nə itin azıb?

19 iyun 2013

## VÜCUDNAMƏ

Su kimi torpağa hopduq
Atadan, anadan qopduq
Bu dünyada nədən qorxduq
Sözdən, Allahdan savayı.

Hər gün günü-günə çəkdik
Çəkəmmədik, yenə çəkdik
Dərdin önündə nə çəkdik,
Nə çəkdik, ahdan savayı?

Beləcə ömrü bitirdik
Əmri yerinə yetirdik,
Gəldik, gördük, nə götürdük
Quru günahdan savayı?!

11 iyul 2013